KAMAL CAMALOV

# HƏZRƏTİ ƏLİNİN ELM VƏ TƏRBİYƏ HAQQINDA FİKİRLƏRİ

B A K I – 2009

**Elmi Redaktor:** **Oruc Həsənli**
Pedaqoji elmlər doktoru, professor

**Rəyçilər:** **Fərahim Sadıqov**
Pedaqoji elmlər doktoru, professor

**Fərrux Rüstəmov**
Pedaqoji elmlər doktoru, professor

**Redaktoru:** **Könül Camalbəyli**

**K.H.Camalov. Həzrəti Əlinin (ə.) elm və tərbiyə haqqında fikirləri. Bakı, 2009, 82 səh.**

Pedaqoji elmlər namizədi, Azərbaycan Respublikasının əməkdar müəllimi Kamal Camalovun «Həzrəti Əlinin (ə.) elm və tərbiyə haqqında fikirləri» adlı kitabında dərin düşüncəli pedaqoq, görkəmli mədəniyyət və dövlət xadimi Həzrəti Əlinin ictimai mühiti, şəxsiyyət və əxlaq, əqli tərbiyə, elm və elm öyrənməyin fəzilətləri haqqında fikirləri işıqlandırılır. Əsər ilk dəfə elmi nöqteyi nəzərdən oxucu kütləsinə təqdim olunur.

Kitab pedaqoji fikir tədqiqatçılarına, tələbələrə, magistr, dissertant və aspirantlara, gənc tədqiqatçılara, həmçinin ümumtəhsil məktəb müəllimlərinə ünvanlanmışdır.

# ÖN SÖZ

Yüz illərdir ki, mənəviyyatımız və əxlaqımız Ulu Tanrının bizlərə bəxş etdiyi müqəddəs bir dinin işığında nurlanır, saflanır, təmizlənir. Ruhumuzun qidası və əqlimizin çırağı kimi «Qurani-Kərim» nəsilbənəsil mənəviyyatımızı kamilləşdirir, hərəkət və davranışlarımızı nizama salır. Xeyirin şərə, mərhəmətin insafsızlığa, əqlin cəhlə, axirətin dünyagirliyə, haqqın zülmə qarşı mübarizəsində qələbəsi əsl dinin başçısı və axırıncı peyğəmbəri Məhəmməd əleyhissəlamın Allaha qovuşmaq üçün bizlərə göstərdiyi «doğru yolun», hidayətin sayəsində mümkün olur. Və zaman-zaman böyük islam dünyasında adı və əməlləri insanların dilində vird olunan, peyğəmbərin himayəsində tərbiyə almış, «dinin qılıncı» və onun həyatı naminə qoruyucusu kimi tanınmış Həzrət Əli (ə.) xütbələri, on bir min müdrik söz və deyimləri əqlimizi və ruhumuzu cilalayır, bəd əməllərdən, naqis hərəkətlərdən çəkindirir, dünya və axirət işlərimizi (insanlıq şərafətini) qorumağa çağırır, xoş və ülfətli olmağa səsləyir.

Həzrət Əli (ə.) din və imanımızın elə müqəddəs simalarındandır ki, həm qəhrəmanlığı və şücaəti, həm də elm və fəziləti ilə ali bir şəxs, mənsəb və şöhrət sahibidir. O, din mücahidi və mübəlliği kimi peyğəmbərdən sonra ikinci, digər dindaşları arasında isə müqayisəyə gəlməz bir səviyyədə, mərtəbədə durur. Həzrət Əli (ə.) böyük sərkərdə, cəsur döyüşçü, siyasət və dövlət xadimi, xəlifədir.

Müqəddəs və şərafətli dinimizə ilahiyə də xoş gələn vurğunluğu, təmiz və səmimi inamı, möhkəm əqidəsi, böyük idealları ilə qoşulması sonda onu müqəddəslik simvoluna çevirmişdir.

Həzrəti Əli (ə.) 1400 il bizdən uzaqlarda islamın müdafiəçisi və carçısı, öz cəsurluğu, şücaəti, mərdliyi, dönməzliyi, möminliyi və etiqadlığı ilə hər kəsə, hər bir müsəlmana nümunə olmuşdur. O, təkcə öz keyfiyyətləri ilə dinimizin tarixində, yaddaşımızda yaşamaq haqqını qoruya, indi də, gələcəkdə də ürəkləri riqqətə gətirə, fikrimizi məşğul edə bilərdi. Lakin Həzrəti Əliyə (ə.) Allah tərəfindən çox az müqəddəslərə, böyük şəxsiyyətlərə nəsib ola biləcək keyfiyyətlər, imkanlar bəxş edilmişdir. O, hər şeydən əvvəl dərin təfəkkür, sağlam və işıqlı düşüncə sahiblərindən biri idi. Bu müqəddəs zatda qılınc və qələm, qəhrəmanlıq və şairlik üzvi surətdə birləşmişdir, incə, zərif şair ruhu ilə döyüşçü əzmi və cəsurluğu qaynayıb qarışmışdır. Həzrəti Əlidə (ə.) həmçinin, filosof, mütəfəkkir düşüncəsi ilə dövləti idarə etmək, siyasi xadim keyfiyyətləri bir-birini tamamlayırdı. Nəhayət, bu böyük şəxsiyyət yüksək mənəvi-əxlaqi keyfiyyətlərin təcəssümü olmaqla yanaşı, bizlərə elə bir əxlaq və tərbiyə haqqında nadir incilər, zəngin xəzinə mirası qoymuşdur ki, obrazlı şəkildə deyilsə, bu irs tükənməz və şirin bir bulağa bənzər. Bizdən əvvəl gələnlər bu bulağın suyundan içmiş, mənəvi təmizliyə təşnəliyimizdən, susuzluğumuzdan bizlər də içirik, gələcək nəsillər də ürəyinə sərinlik (təmizlik), idrakına

güc gətirəcək bu təmiz, saf nemətdən bəhrələnəcəkdir.

Gənc tədqiqatçı, pedaqoji elmlər namizədi K.Camalov belə bir ağır və yüksək məsuliyyət tələb edən işin tədqiqinə təşəbbüs etmişdir. Bu isə, təbii ki, dünyagörüşü, ümummədəni səviyyəsindən və ixtisasından asılı olmayaraq hər bir oxucuda maraq doğurmaya bilməz. Ən azı ona görə ki, müəllifin hər bir evdə və hər bir kəsin stolüstü kitabı, mütaliə mədəniyyətinin göstəricisi olan təkcə «Nəhcül-bəlağə»də Həzrəti Əlinin (ə.) əxlaq və tərbiyə haqqında fikirlərinə hansı prizmadan, metodologiya və mövqedən yanaşdığını öyrənmək marağı hər kəsdə yarana bilər. Fərəhli haldır ki, müəllif belə bir cəhəti sezmiş və tədqiqatın giriş hissəsində öz məqsədini açıq-aydın ifadə edə bilmişdir: «Həzrəti Əlinin (ə.) pedaqoji irsinin öyrənilməsi tək islam prinsipləri nöqteyi-nəzərindən deyil, həm də elmi nöqteyi nəzər üçün faydalıdır. Çünki onun təlim-tərbiyəyə aid fikirləri müasir məktəblərimiz üçün, gənc nəsli nəcib əxlaqi keyfiyyətlər ruhunda tərbiyələndirmək işində xüsusi əhəmiyyətə malikdir».

Müəllif, Həzrəti Əlinin (ə.) pedaqoji ideyalarının bir çox cəhətlərini – vətənpərvərlik, humanizm, dostluq-yoldaşlıq, ailə tərbiyəsi, əqli və əxlaqi tərbiyə ilə bağlı fikirlərini üzə çıxarmış, bu baxışların tam elmi sistem olduğu qənaətinə gəlmişdir. İslam dünyasının ikinci böyük şəxsiyyətinin fikirləri müasir pedaqoji tələblər baxımdan, milli tərbiyə prinsiplərinə uzlaşdırılaraq öyrənilmişdir.

Həzrəti Əli (ə.) bütün müsəlman dünyasında elm və bəlağət sahibi, müdrik filosof kimi tanınır və sevilir. Peyğəmbər Əleyhissəlam buyururdu ki «Mən elmin şəhəri, Əli isə onun qapısıdır. Elm öyrənib alim olmaq istəyən bu qapıya gəlsin».

Həzrəti Əli (ə.) elmin faydasını yüksək qiymətləndirərək deyirdi: «Mənə bir hərf öyrədənin köləsiyəm», «Elmli gənc nadan ağsaqqaldan xeyirlidir», «Alim məclisləri cənnət bağlarıdır», «Elm dünyanın ən zəngin xəzinələrindən qiymətli olduğu halda, havayı satılır və havayı alınır» və s.

Həzrəti Əli müsəlman aləminin ilk filosoflarından biridir. Böyük müdrikin təkcə bu məşhur fikrini yada salmaq kifayətdir: «Dünyanın keçmişini gələcək üçün ibrət aynası bilməliyik. Çünki keçmişlə gələcək bir-birinə çox bənzəyir. Dünyanın sonu əvvəlinə bağlıdır, keçib getmişdir, qalan zamanın da hamısı gələcəkdir, olub bitmişdir».

Dövrün, zamanın tələbinə uyğun olaraq Həzrəti Əlinin (ə.) təlim-tərbiyə haqqında fikirləri həm böyüklərə, həm də uşaqlara ünvanlanmışdır. Tədqiqat müəllifin qeyd etdiyi kimi onun tərbiyə ilə bağlı fikirlərində məqsəd insanı müdrikləşdirmək, ruhunu zənginləşdirmək, əxlaqını saflaşdırmaq, davranış və hərəkətlərini cəmiyyət normalarına uyğunlaşdırmaqdan ibarətdir. Bu məqsədə çatmaq isə insanın özünü və Allahı dərk etməsi, hər şeyə iman gözü ilə yanaşmasından mümkün ola bilər.

Müəllif Həzrəti Əlinin (ə.) həyatı, mübarizə amalı, şəxsiyyətini, elmi və bəlağəti, şairliyi, filosof-

luğu, pedaqoqluğu və s. kimi şəxsi və idraki keyfiyyətləri ilə bağlı geniş və aydın təsəvvürə, məlumata malikdir. Bu isə müəllifin Həzrəti Əliyə (ə.) olan sevgisi, məhəbbəti, həmçinin intellektinin verdiyi imkanlara əsaslanaraq layiqli bir əsər ortaya qoya bilməsinə imkan yaratmışdır. Pedaqoji fikrin açılmamış səhifələrini, öyrənilməmiş problemlərini özünün yaradıcılıq məramı hesab edən tədqiqatçı-alim, Azərbaycan Respublikasının əməkdar müəllimi Kamal Camalov bu tədqiqatında da öz yaradıcılıq prinsiplərinə sadiq qalmışdır. İnanırıq ki, oxucuda da belə bir qənaət yaranacaq.

**Vahid Rzayev**

**Naxçıvan Dövlət Universitetinin «Pedaqogika və psixologiya» kafedrasının müdiri, pedaqoji elmlər namizədi, dosent**

## GİRİŞ

Yüksək əxlaqi keyfiyyətlərə və həssas mənəvi aləmə malik olan Azərbaycan xalqının çox əsrlik tarixi boyunca gənc nəslin tərbiyəsi ilə bağlı zəngin pedaqoji fikirlər toplanmışdır. Bu mənəvi əxlaqi-pedaqoji sərvətləri öyrənmək, onları pedaqoji təfəkkür süzgəcindən keçirib müasir gəncliyin tərbiyəsində istifadə etmək və məktəb təcrübəsinə gətirmək tədqiqatçıları düşündürən ciddi problemlərdən biri olmuşdur. Çünki yeni pedaqoji fikir keçmişin mütərəqqi irsi ilə orijinal fikirlərin sintezindən yarana bilər. Elə buna görə də Azərbaycanda təlim və tərbiyənin yeni konsepsiyasını, inkişaf tendensiyalarını müəyyənləşdirməyə çalışan tədqiqatçılar Azərbaycan pedaqoji irsindəki qabaqcıl ideya, fikir və təcrübələrin, ayrı-ayrı şəxslərin təlim-tərbiyə ilə bağlı fikirlərinə girişdilər. Zərdüşt məktəblərində təlim və tərbiyə, erkən orta əsrlər dövründə «Oğuznamə»lər, xalq müdrikliyi və onların pedaqoji əhəmiyyəti, «Kitabi – Dədə Qorqud» dastanlarında pedaqoji fikirlər, VII-VIII əsrlərdə Azərbaycan poeziyasında pedaqoji fikir, Əbülhəsən Bəhmənyarın fəlsəfi irsində pedaqoji fikirlər, Fərabinin pedaqoji fikirləri, Yusif Xas Hacib və onun «Qutadqu bilik» əsərində pedaqoji ideyalar, Əbu-Əli İbn Sinanın pedaqoji fikirləri, Əxlaqi-didaktik əsər – «Atabəy-ül həqayiq» və müəllifi Ədib Əhməd

Bu istiqamətli tədqiqatların indi də davam etdirilməsinə çox böyük ehtiyac vardır. Çünki hələ də böyük ideya sahiblərinin heç də hamısının pedaqoji irsi layiqincə araşdırılmamışdır. İslam dünyasının mənəviyyat pasportuna çevrilən Həzrəti Əli (ə.) də belə şəxsiyyətlərdən, maarifpərvərlərdən biridir.

Məhəmməd Peyğəmbərin (s.ə.s.) səslədiyi kimi buyursaq, «Allahın Aslanı və Övliyalar Sultanı» Həzrəti Əlinin (ə.) indiyə qədər zəngin pedaqoji irsi, müsəlman mədəniyyətinin yaranmasında onun rolu, şəxsiyyət və əxlaq haqqında; elm və elm öyrənməyin fəzilətləri haqqında; əqli tərbiyə haqqında və s. ilə bağlı fikirləri tədqiqatdan təcrid edilmişdir. Halbuki, övliyalar sultanının irsi bu gün də böyüyən nəslin təlim-tərbiyəsində mühüm rol oynayır. Onun, Azərbaycanın pedaqoji fikir tarixində xüsusi yeri və mövqeyi vardır. Məhz elə buna görə də Həzrəti Əlinin (ə.) fəaliyyətindəki pedaqoji fikirlərin üzə çıxarılmasını, müqayisəli şəkildə təhlil olunmasını və sistemləşdirilməsini qarşımıza məqsəd qoymuşuq.

Həzrəti Əli (ə.) yaradıcılığında olan pedaqoji fikirlərin tədqiq edilib öyrənilməsi bu mənada vacibdir ki:

1. Nakam ömrünün qısa müddətini xəlifəliklə başa vuran Həzrəti Əli (ə.) VII əsrin əvvəllərində ictimai-pedaqoji hərəkatın əsas simalarından biri olmaqla yanaşı Yer dünyasının günəşi sayılan Məhəmməd Peyğəmbər (s.ə.s.), Əbubəkr (632-634), Ömər (634-644) və Osman (644-656) kimi böyük

Məhəmməd Peyğəmbər (s.ə.s.), Əbubəkr (632-634), Ömər (634-644) və Osman (644-656) kimi böyük xəlifə və zatlarla çiyin-çiyinə çalışmış, dövrünün mühüm pedaqoji məsələlərini demokratik əsaslarla həll etmək uğrunda ciddi mübarizə aparmışdır.

2. Həzrəti Əlinin (ə.) pedaqoji irsinin öyrənilməsi tək islam prinsipləri nöqteyi-nəzərindən deyil, həm də elmi nöqteyi nəzər üçün faydalıdır. Çünki onun təlim-tərbiyəyə aid fikirləri müasir məktəblərimiz üçün, gənc nəsli nəcib əxlaqi keyfiyyətlər ruhunda tərbiyələndirmək işində xüsusi əhəmiyyətə malikdir.

3. Yüksək əxlaqa malik, güclü və qüdrətli, səbirli, humanist, işgüzar, dərin düşüncəli pedaqoq, görkəmli ictimai mədəniyyət və dövlət xadimi Həzrəti Əlinin (ə.) həyat yolu hər bir ağsaqqala, gəncə və uşaqlara bariz nümunədir.

Həzrəti Əlinin (ə.) yaşayıb fəaliyyət göstərdiyi mühiti, ictimai-siyasi baxışlarını və yaradıcılığının, həmçinin haqqında bəhs olunan fikir mənbələrini müəyyənləşdirmək; Həzrəti Əlinin (ə.) pedaqoji fikirlərini və fəaliyyətini elmi-pedaqoji aspektdən təhlil etmək; Həzrəti Əlinin (ə.) vətənpərvərlik, humanizm, yoldaşlıq-dostluq, ailə tərbiyəsi ilə bağlı fikirlərini sistemləşdirmək və Həzrəti Əlinin (ə.) müasir dövr üçün pedaqoji fikilərininin əhəmiyyətini göstərməkdən ibarətdir.

Həzrəti Əlinin (ə.) yaradıcılığındakı təlim-tərbiyə ilə bağlı fikirlər ilk dəfə elmi pedaqoji aspektdən araşdırılır və sistemləşdirilir. Onun fikirləri

dövrün ictimai-siyasi hadisələri fonunda, müasirlərinin fikirləri kontekstində təhlil olunur.

– Həzrəti Əlinin (ə.) ömür və xəlifəlik fəaliyyəti yolu şəxsiyyət və mühit münasibətləri sistemi daxilində öyrənilmiş;

– Həzrəti Əlinin (ə.) ədəb və əxlaq, elm və təhsil haqqında olan fikirləri ümumiləşdirilmiş;

– Həzrəti Əlinin (ə.) pedaqoji fikirlərində dövrün ictimai-siyasi hadisələri və pedaqoji hərəkat şərtləndirilmişdir. Onun yaradıcılığı zəmanəsində baş verən ictimai-siyasi proseslərin və mədəni quruculuğun meyllərini doğru-düzgün əks etdirən bir mənbədir.

– Həzrəti Əli (ə.) böyüyən nəslin təlim-tərbiyəsi, onun mahiyyəti, məzmunu, prinsip və metodları ilə bağlı orijinal fikirlər söyləmişdir.

Həzrəti Əlinin (ə.) pedaqoji irsi elmi-nəzəri aspektdən tədqiq olunmuş, elmi əhəmiyyəti və aktuallığı ilə seçilən təlim-tərbiyə ilə bağlı fikirləri dəyərləndirilmişdir.

## 1. HƏZRƏTİ ƏLİ (ə) VƏ ONUN HƏYATINA MÜFƏSSƏL BAXIŞ

İlk öncə onu qeyd edək ki, islam dininin banisi Məhəmməd Peyğəmbərin (s.ə.s.) taleyi elə gətirmişdi ki, Həzrəti Əlinin (ə) atası Əbu Talibin himayəsi altında böyümüşdür. Məhəmməd Peyğəmbər (s.ə.s.) ona çəkilən fədakarlıqların və zəhmətlərin qarşılığını ödəmək fikrində olmuş və bu üzdən mümkün olan bir yolla əmisinə olan borcunu doğru bir zamanda ödəməyə fürsət axtarmışdır.

604-cü ildə Məkkədə böyük aclıq baş vermişdi. Əbu Talibin övladlarının sayı çox olduğundan Məhəmməd Peyğəmbər (s.ə.s.) Həzrəti Əlini (ə.) əmisindin istəyərək, onu öz yanına almış və «əfəndimizin eşsiz tərbiyəsi altında böyümüşdür» (5, s.150). Həzrəti Əli (ə.) Peyğəmbərimizin təlimi altında onun inanc və davranışlarından dərs almışdır. Həzrəti Əli (ə.) islamın ikinci böyük şəxsiyyəti hesab olunur. O, 598-ci ildə Məkkədə anadan olmuşdur. Əli (ə) islam dinini ilk qəbul edənlərdən olmuş, müsəlmançılığın qəbulu uğrunda aparılan döyüşlərdə iştirak etmiş, «islamın qılıncı» ləqəbini qazanmışdır. İslam dininin xəlifələri sayılan Əbubəkir, Ömər və Osmandan sonra dördüncü xəlifə (656-661-ci illər) kimi islam taxtına çıxmışdır. Suriya valisi Müaviyə ilə müharibədə müvəffəqiyyətsizliyi nəticəsində tərəfdarları olan şiələr arasında parçalanma baş vermişdir. 661-ci ildə Həzrəti Əli (ə) sui-qəsd nəticəsində məsciddə namaz qılarkən

zəhərli qılıncla Əbdürrəhman ibn Mülcam tərəfindən qətlə yetirilmiş və ölümündən sonra dünya müsəlmanlarının ibadətgahına çevrilən Nəcəf şəhərində dəfn olunmuşdur.

Qeyd etdiyimiz kimi, Peyğəmbər Əfəndimiz (s.ə.s) Həzərəti Əlini (ə) altı yaşında öz yanına almış və onun tərbiyəsi ilə bilxassə özü məşğul olmuşdur. Əli (ə) balaca vaxtından Həzrəti Peyğəmbərin (s.ə.s.) sevgi və şəfqətinə boyanmışdır. O, Həzrəti Rəsulallaha (s.ə.s) qarşı qəlbində bənzəri tapılmayan bir sevgi və ilgi daşımışdır. Onların arasında bağlanan bağ əsla qopmayacaq güclü bir bağdı. Hz. Əli (ə) bir kölgə kimi hər zaman Hz. Rəsulallahı (s.ə.s) izləmiş və bir an olsun yanından ayrılmamışdır. O, doğrudan doğruya peyğəmbərin tərbiyəsi altında inanc və davranışlarından dərs almış və qısa bir zaman içində Həzrəti Məhəmmədin (s.ə.s.) bütün hal və xasiyyətlərini öyrənmiş və onları özündə cəmləşdirmişdir.

Bildiyimiz kimi insanın yaşam vaxtı bir neçə illərə bölünür. İnsan o illərin hər birində yaşının uyğunluğuna görə bir sıra işlər görər. Məsələn, insanın uşaqlıq illəri bir parça özəl hal və hərəkətləri gərəktirir. Ancaq Hz. Əli (ə) digər normal uşaqların əksinə, uşaqlıq illərində heç zaman uşaq oyunları ilə məşğul olmamışdır. O, bu kimi işlərdən davamlı sıxılmış, uşaqlıq illərindən etibarən böyüklük fikrində olmuşdur.

Əgər əvvəlki üç xəlifə yalnız xəlifə kimi adları tarixdə qalmışsa, Həzrəti Əli (ə) həm də dünya

qəhrəmanlıq, ədəbiyyat, fəlsəfə və pedaqogika tarixinə düşmüşdür. Bu da təsadüfi deyil. Onun Zülfüqar qılıncını tutan mətin əllərindən yüzlərlə dərin mənalı, zərif ruhlu, təsirli şeirlər, qitələr, aforizmlər, risalələr, xitablar çıxmışdır. Belə ki, Həzərəti Əli (ə.) əqli, elmi, əxlaqi, dini və bu kimi məsələlərlə bağlı **on bir min söz buyurmuşdur.** «Nəhcül - bəlağə» kitabı onun islamın müdafiəçisi və carçısı olmaqla bərabər, həm də dövrün görkəmli siyasət adamı, dərin təfəkkür, sağlam və işıqlı düşüncə sahibi, yüksək mənəvi keyfiyyətlər daşıyıcısı olmasına dəlalət edir. Onun taleyi acınacaqlı olmuşdur. Həyat yoldaşı Həzrəti Fatimə atası Məhəmməd Peyğəmbərin (s.ə.s.) ölümündən altı ay sonra 19 yaşında əbədiyyət aləminə qovuşmuş, oğlanları Həsən və Hüseyn, nəvə və nəticələri amansızlıqla öldürülmüşdür.

## 2. MÜSƏLMAN MƏDƏNİYYƏTİNİN YARANMASINDA HƏZRƏTİ ƏLİNİN (ə.) ROLU

**Qəlbini öyüdlə dirilt, hikmətlə işıqlandır**
**Həzrəti Əli**

İslam aləmində nizam-intizamın, haqq və ədalətin, doğruçuluq və düzlüyün, qadına hörmət, yaşlılara qayğı və s. bu kimi ibrətamiz qanunlar Məhəmməd Peyğəmbər (s.ə.s.) tərəfindən qoyulmuşdur. İslamın meydana gəlməsi ilə elm, təhsil, mədəniyyət və mənəviyyat sivilizasiya nöqtəsinə gəlib çatdı. Həzrəti Əlinin (ə.) müsəlman mədəniyyətinin yaranmasındakı fəaliyyəti dönəminə keçməmişdən əvvəl sonuncu peyğəmbər kimi seçilən Məhəmməd Peyğəmbərin (s.ə.s.) fəaliyyətinə qısaca da olsa nəzər salaq.

Məhəmməd peyğəmbərin (s.ə.s.) qızğın fəaliyyət dövrü Allah tərəfindən «Quran»nın ona göndərilməsi ilə başlayır. Uşaqlığından bəri bütün həyatı məkkəlilərin gözü önündə tərtəmiz keçən, insanların ən böyük qurtarıcısı, gələcəyin ən böyük xilaskarı sayılan Həzrəti Məhəmməd qırx yaşına təzəcə qədəm qoyan zaman, artıq yer üzündə mədəniyyətin bir daha mükəmməl şəkildə formalaşmasına təzədən qayıdış zamanı çatmışdı. Bu ali, mükəmməl, çətin və ən önəmlisi şərəfli işin öhdəsindən gələcək zat isə hər günü dünənki gününə daha üstün olan ağlı, fikri, qəlbi Allahın bildi-

rəcəyi böyük gerçəklərə hazır olan Peyğəmbər əfəndimiz idi. Yuxusunda gördüyü şeylər çin olur, yuxuda gördüyü hadisələr həyatda təkrar olunurdu. Bu hal altı ay sürdü...

...Miladi tarixi ilə 610-cu ilin bir Ramazan gecəsində əbasına bürünmüş Məhəmmədin anadangəlmə ürəkkeçmə xəstəliyinə düçar olmuş qəlbi növbəti tutmanın sıxıntıları içində əsim-əsim əsirdi... Bu vaxt ürpədici bir səs, bütün varlığını sarsıdan bir sədayi-qayibanə eşidildi: Ey əbayə bürünmüş! Əbanı at! Ayağa dur, şəhər civarındakı Nur dağının Hira mağarasına gəl! Deyilənlərə əməl etsən, anadangəlmə düçar olduğun bu hal bir daha təkrar olunmayacaqdır!

Bu sədanı sevimli Peyğəmbərimizin istəkli xanımı Həzrəti-Xədicə nənəmiz, əmisi oğlu Həzrəti-Əli Əleyhissəlam və Peyğəmbərimizin övladlığa götürdüyü Zeyd ibn Sabit də eşidir.

Məhəmməd büründüyü əbasını atıb cəld bir hərəkətlə ayağa durur. Həmişə saatlarla davam edən tutması bir anın içində keçib getmişdi. Anadangəlmə ürəkkeçməsi ömrünün sonuna qədər bir daha təkrar olunmayacaqdı. Gecəyarısı Hira mağarasına yollanmaq istəyən Məhəmmədi Əli də müşayiət etmək istərkən həmin sədayi-qayibanə: - Tək gəl! – deyə qətiyyətlə əmr edir.

Nur dağının Hira mağarasında Allahın Cəbrayıl adını daşıyan Ulu mələyi ona göründü:

– Ya Məhəmməd! Sən Allahın Peyğəmbəri, Rəsulusan! Allahın vahidliyini, allahdan başqa heç

kimə və heç nəyə ibadət edilməyəcəyini insanlara bildirməlisən; getdikləri yolun düz yol olmadığını onlara sən başa salmalısan! – dedi və Quranın:

«Oxu! Yaradan Rəbbinin adı ilə! Oxu! – deyə ilk ayələrini oxumağa başlayaraq əlavə etdi: - Sənə Allah-təbarəkü və təala tərəfindən vəhy olunan bu ayələri və gələcəkdə vəhy olunacaq ayələri oxu və yazdır!» deyirik.

– Axı yadımda qalmaz.

– Hər şey bizim əlimizdədir! Elə edərik ki, heç vaxt yadından çıxmaz! (Bax: «Əl-Əla» surəsi, 6-cı ayə, səh. 627).

Cənabi-Cəbrayılın verdiyi bu təminatdan sonra Peyğəmbərimizə ilahi bir yaddaş, mükəmməl bir hafizə bəxş olundu. Həmin gündən başlayaraq həyatının son anına qədər Peyğəmbərimiz «Quran»ın bütün ayə və surələrini əzbər bilirdi. Cənabi Cəbrayıl ilə bu ilk görüşündən sonra Peyğəmbərimizin halı büsbütün dəyişdi... Allah onun gözünü və könlünü açdı; qəlbi nurla, elmlə, biliklə doldu; gözləri bir aləmin işıqları ilə aydınlaşdı. O, artıq əvvəllər bilmədiyi hər şeyi bilir və bildirir, görür və göstərirdi...

...Ərəblər bütlərə ibadət edirdilər. Müqəddəs Kəbədə 360 büt vardı. Zülm, haqsızlıq, ədalətsizlik və həyasızlıq dünyanı götürmüş, cahillik və nadanlıq gözləri və qəlbləri bürümüşdü. Böyük-kiçik bilinmir, haqq-hüquq gözlənilmir, zəiflər ayaqlar altında inləyir, qız uşaqları anadan olan kimi diri-diri torpağa gömülür, heç kəs öz şəxsi mənfəətindən

başqa heç bir şey düşünmürdü. Arvadlar ortaq mal kimi varisdən varisə keçir, analıq haqqı, qadınlıq şərəfi ayaqlar altında tapdanırdı. Qəlblər pozğun, düşüncələr pozğun, əxlaq pozğun, iman pozğun, din pozğun və s. Təkbaşına bütün bu pozğunluqları düzəltmək, insanları yüz illərdən bəri getdikləri, güddükləri yoldan ayırmaq, çevirmək nə qədər çətindi...

Öncəki peyğəmbərlər bir milləti, bir tayfanı, bir qəbiləni doğru yola sövq etməklə vəzifələrini bitmiş hesab etmişdilərsə, Peyğəmbərimiz bütün insanları doğru yolun yolçusu etməyə Allah tərəfindən əmr almışdı. Bu vəzifənin genişliyini, böyüklüyünü və çətinliyini sadəcə olaraq düşünmək belə, insanı dəhşətə gətirir...

Yuxarıda qeyd etdiyimiz kimi bununla da müsəlman mədəniyyətinin təməli qoyulmuş oldu və ilk iman gətirənlər də, daha doğrusu bu mədəniyyətin təlqinçiləri əvvəl Həzrəti-Xədicə nənəmiz, Həzrəti-Əli (ə.) və övladlığa götürdüyü Həzrəti-Zeyd İbn Sabit oldu.

Məhəmməd Peyğəmbər (s.ə.s.) İslam dinini üç il gizli-gizli yaymağa çalışmış, sonra açıq-aydın təbliğ etməsi üçün Allahdan əmr gəlmişdi. Peyğəmbərimiz Səfa təpəsinə çıxaraq məkkəlilərə belə bir müraciət etdi:

– Ey Qüreyş! Biliniz ki, Allah birdir! Ondan başqa ilahi yoxdur! Allahdan başqasına ibadət etmək, inanmaq sapqınlıqdır, ən böyük günahdır!

Mən Allahın Peyğəmbəriyəm; Onun buyruqlarını sizə bildirən elçiyəm, Allahın Rəsuluyam. Öldükdən sonra bu dünyadakı işlərinizdən, əməllərinizdən, Allahın buyruqlarını yerinə yetirib yetirmədiyinizdən sorğu-suala çəkiləcəksiniz! Allahın vahidliyini və mənim peyğəmbərliyimi qəbul edin! Bütlərə inanmaqdan imtina edin! Sözlərimə inanmayıb, göstərdiyim Allah yolu ilə getməsəniz böyük fəlakətə, dəhşətli əziyyətlərə uğrayacaq, cəhənnəm əzabına düçar olacaqsınız!

Məkkənin söz sahibləri Peyğəmbərimizin bunları şöhrət üçün, sərvət sahibi olmaq üçün, başa keçmək üçün etdiyini sanmış, odur ki, şəhərin ağıllı və nüfuzlu adamlarını Onun yanına göndərərək:

– Bütlərimizi pisləməkdən əl çək, əgər peyğəmbərlikdən məqsədin sərvət qazanmaqdırsa, sənə istədiyindən də artıq sərvət verərik! Əgər zəngin və gözəl bir qadınla evlənmək istəyirsənsə, istədiyin qızı sənə alarıq! Yox, əgər hökmdar olmaq arzusundasansa, səni hökmdar seçib, başa keçirərik! – dedilər.

Məhəmməd Peyğəmbər (s.ə.s.) bu təklifləri həmin anda rədd edərək:

– Mən Allahın elçisiyəm. Allahın əmrlərini, buyruqlarını bildirmək və yaymaq mənə bir vəzifə olaraq tapşırılıb. Bu vəzifəni yerinə yetirməkdən başqa heç bir məqsədim və düşüncəm yoxdur! – demişdir.

Qüreyş qəbiləsinin böyüyü də, kiçiyi də Peyğəmbərimizə, Onun ailə üzvlərinə və müsəlmançı-

lığı qəbul edənlərə qarşı amansız düşmən kəsildilər, hər cür həqarət və işgəncələr etməkdən çəkinmədilər.

Sevimli Peyğəmbərimiz 23 il, həyatının son dəqiqələrinədək hər əzaba dözmüş, hər məşəqqətə qatlaşmış, fəqət, Allahın əmr və buyruqlarını təbliğ etməkdən, açıqlamaqdan və yaymaqdan bir an da olsun geri çəkilməmişdi...

**Bunu da qeyd edək ki, Quran ayələrinin nazil olma müddəti 22 il 2 ay, 22 gündür.** Bu müddətin ilk 13 ili Peyğəmbərimizin həyatının Məkkə dövrünə, qalan 10 ili isə Mədinə dövrünə aiddir.

Axirəlzaman Peyğəmbərimiz son vəsiyyətlərinin birində bütün dünya müsəlmanlarına xitabən Kainatın ən böyük Xilaskarı, nəhayətsiz olan mülkün Seyyidi, Kövsər hovuzunun Sahibi, aləmlərin Əfəndisi, dünyanın ən dahi İnsanı Rəsuli-Əkrəm, Nəbüyyül-Hatəm, Peyğəmbəri-Möhtərəm, Səlləllahu əleyhim və alihi və səlləm Həzrəti-Məhəmməd Müstafa Salavatulla Müqəddəs dodaqlarında Cənnət təbəssümləri, Mübarək xütbələrində buyurmuşdur:

«— **Ey insanlar! Ey Müsəlmanlar! Ey mənim Hümmətim! Bir olun! Birlikdə olun! Əl-ələ verərək aranızda möhkəm bir ittifaq yaradın!** Allah yolunda addımlayarkən sıralarınızda səf-səf durun! Çiyin-çiyinə durarkən Allaha xidmət etmiş olursunuz, yoxsa Allah ibadətlərinizi qəbul buyurmaz! Aranıza nifaq salınmasına imkan verməməli, birlikdə hərəkət etməlisiniz! Bunları etməsəniz İslamiyyətdə

məzhəblər meydana gətirərək, aranıza təfriqələr salaraq, birliyinizi parçalayacaq, Allahın sizə bəxş etdiyi azadlığı və hürriyyəti əlinizdən alacaqlar. **Allah sizi hürr yaratmışkən çalışın qula qul olmayın!** Başqa dindən olanlara İslam haqqında fikir yürütməyə heç bir vaxt imkan verməyin, hətta o münafiqlər sizin dininizi təriflləsələr belə! Çalışın Allahla öz aranızda pərdədar olmasın!

Dediklərimə əməl etməsəniz Qiyamət günü Kövsər hovuzu başında yanıma gələ bilməyəcək, Allahın qulu və Rəsulunun İslam bayrağı altında kölgələnə bilməyəcəksiniz!»

Bax bundan sonra müsəlman mədəniyyətinin yaranmasında Həzrəti Əli Əleyhissəlamın böyük fəaliyyət dönəmi başlamışdır. Belə ki, elm və hikmət, şücaət və ülviyyət sahibi olan Həzrəti Əli (ə.) xəlifəlik dönəmində bütün gücünü islam dünyasının şan və şərəfi uğruna həsr etmişdir.

Hətta bir gün Peyğəmbərimiz buyurmuşdur:

**«Elm, hikmət, yüksək əxlaq, ədalətli hökm və fəzilətlər sahibi olan Əlinin şan və şərəfi o qədər ucadır ki, cənnətlər belə ona müştaq olmuşdur!»**

Müharibələrdə göstərdiyi şücaət, mərdlik və qəhrəmanlıqlarına görə, İslamın qələbə çalmasında və təbliğində göstərdiyi igidliklərə görə Peyğəmbərimiz Həzrəti Əliyə (ə.) əksər hallarda «Ey Əbu-Turab» (Torpağın atası) deyə müraciət edərmiş. Peyğəmbərimizin mübarək sözlərindən:

**«Mən elmin şəhəri, Əli isə onun qapısıdır! Elm öyrənib, alim olmaq istəyən bu qapıya gəlsin!»**

«– Cənabi-Allah dörd nəfəri sevməyimi mənə əmr etdi və Özlərinin də onları sevdiyini mənə xəbər verdi.

Soruşdular:

– Ey Allahın Rəsulu, o dörd nəfərin kimlər olduğunu bizə söyləyərsinizmi?

– Əli onlardandır, Əli onlardandır, Əli onlardandır.

Bir də Əbu Zər, Miqdad və Səlmandır».

« – Cənnətin qapısında: «La ilahəilləllah Mühəmmədün Rəsulüllah! Əmirəlməminiynən Əliyyən Vəliyyullah Vəsi ya Rəsulüllah!» yazısı Yer və göylər yaradılmamışdan iki min il öncə yazılmışdır. Çünki Əli İslamı ilk qəbul edən və mənimlə yeddi il gizli namaz qılmış yeganə iman əhlidir».

«Allah uca fərmanı ilə ulu mələkləri Cənabi-Cəbrayıla və Cənabi-Mikayıla əmr etdi ki: - Sizin bir vəzifəniz də Əlini qorumaqdır!

Cənabi-Cəbrayılın xitabı:

– Ya Əbu-Talibin oğlu Sənə səadətlər olsun ki, Allah mələkləri də səninlə öyünür... Və bu xitab münasibəti ilə mənə belə bir ayə nazil oldu: «İnsanlardan elələri də vardır ki, nəfslərini Allahın rizası yolunda satın alırlar...» (Bəqərə surəsi, 207-ci ayə).

«– Əlinin dörd dirhəm pulu vardı... Birini gizli, o birini aşikar, üçüncüsünü gündüz, sonuncusunu da gecə sədəqə verdi. Soruşdum:

– Ya Əli, sədəqəni niyə bu üsulla verirsən?

– Dördündən biri qəbul olunar ümidiylə, Ey Allahın Rəsulu!..

Əli mənə bu cavabı verən kimi ilahi fərman gəldi: «Mallarını gecə və gündüz, gizli və aşkar (yoxsullara) sərf edənlərin Allah yanında böyük mükafatları vardır. Onların (axirətdə) heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər!» (1, Bəqərə surəsi. 274-cü ayə).

Məkkədən hicrət edərək Mədinəyə gələn səhabələrə «Mühacirlər», Mədinəli səhabələrə isə «Ənsar» (yardımçılar) adı verildikdən sonra Allahdan belə əmr gəldi: «Bütün müsəlmanlar qardaşdır!..»

Peyğəmbərimizin göstərişi ilə mühacirlərlə ənsar arasında hərə özünə qardaş seçdi və əhd-peyman bağladı... Əlinin boynu bükük, məhzun-məhzun baxdığını görən Peyğəmbərimiz bunun səbəbini öyrənmək istədikdə Əli deyir:

– Mənim qardaşım yoxdur?

Belə olan anda Peyğəmbərimiz buyurur:

– Ya Əli, sənin qardaşın mənəm!

Məhəmməd Peyğəmbərin (s.ə.s.) Mübarək Sözlərindən:

«Əli Əleyhissəlam bu dünyada və axirətdə mənim qardaşımdır!». «Müjdə olsun sənə, ya Əli! Sənin həyatın da, ölümün də mənimlədir». «Qızım Fatimə Cənnət qadınlarının əfəndisidir». «Fatiməni Əliyə nigahlamağımı Allah-Təala mənə əmr etdi». «Qızım, Cənabi-haqqa and içirəm ki, mən səni hər kəsdən çox elmi və bilgisi olan, gözəl xasiyyətləri ilə hamıdan fərqlənən, ədəbi ən yüksək əxlaq olan, müsəlmanlığı ilk öncə qəbul edən çox hörmətli zat

ilə nigahlamışam». «Müsəlmanların əfəndisi, Müqtəkilərin imamı və Möminlərin əmiri – ya Əli, mərhaba!» «Allahın səlamı olsun sənə, ya Əbül Həsən və ya Əbül Hüseyn, ya nur nəslinin atası!».

Qeyd etdiyimiz kimi müsəlman mədəniyyətinin inkişafında böyük xidmətləri olmuş Həzrəti Əlinin (ə.) parlaq həyatında çox bəzi ibrətamiz nümunələr olmuşdur ki, onların az bir qisminə nəzər salaq:

Xeybər savaşında Həzrəti Əli (ə.) div kimi bir düşməni yerə sərdi və köksünə çökdü. Qılıncını qaldırıb başını gövdəsindən ayıracağı məqamda, əlini-qolunu tərpədə bilmədiyindən quduran kafir Həzrətin nur üzünə tüpürdü. O zaman Həzrəti Əli (ə.) dərhal qılıncını yerə endirdi və hayqırdı:

– Ey kafir! Mən səni Allah üçün öldürəcəkdim! Sən murdarlıq edib nəfsimi incitdin. İndi bu halda mən səni öldürsəm, öz nəfsim üçün öldürmüş olaram! Qalx ayağa! Rədd ol burdan!

Bu mənzərə qarşısında kafir heyrət və dəhşət içində qalmışdı... Həzrəti Əlinin (ə.) qarşısında diz çökərək Əmirəlmömininə biət gətirdi. İslamı qəbul edib, müsəlman oldu...

Uhud savaşında Həzrəti Əlinin (ə.) kürəyində, ürək nahiyəsində düşmən oxunun zəhərli ucu qalmışdı... Cərrahlar Həzrəti Əliyə (ə.) israr etdilər:

– Ya Əli! Oxu kürəyindən mütləq çıxarmalıyıq! Ağrısına dözə biləcəksənmi?

– Bu işi mən namaz qıldığım zaman etməlisiniz... Ancaq namazda ikən dözə bilərəm.

Həzrəti Əli (ə.) min vəchd ilə namaz qılarkən, ox parçası çıxarıldı və yara bağlandı... Həzrəti Əli (ə.) salam verib namazı qurtardıqdan sonra yanındakı cərrahlara:

– Nə oldu oxu çıxarmadınızmı?

Namaz vəcdi içində o heç bir ağrı duymamış, heç bir şeyin fərqində olmamışdı. Cərrahların gözləri heyrətdən açıla qalmışdı:

– Ya Əli! Heç ağrı duymadınızmı?

– Qəfəsdəki quş uçub gedəndən sonra, həmin qəfəsi sındırıb parçalasanız, quşun bundan xəbəri olarmı?

– Əlbəttə, olmaz!

– Mənim də can qəfəsimin quşu namazda ikən uçub getmişdi...

Elm və hikmət sahibi olan Həzrəti Əli (ə.) həm də sadəliyin mücəssəməsi idi. Bir gün Kufə bazarından aldıqlarını evinə apararkən birisi yaxınlaşaraq:

– Ey Mömünlərin Əmiri, əlinizdəkiləri mənə verin, aparım evinizə. Beləliklə Əhli-Beytə xidmət etmiş olaram.

– Ailə başçısı bunları daşımağa hər kəsdən daha layiqdir! – deyə Həzrəti Əli (ə.) razı olmadı.

Adam yenə israr etdi:

– Ya Əmirəlmömünün! Siz Allah Rəsulunun Xəlifəsisiniz. Bunu sizə və mövqeinizə yaraşdırma-

dığımdan bazarlığınızı daşımaq istədim... Həzrəti Əlinin üzündə səadət təbəssümləri:

– Kim olursa olsun, öz ailəsinə aid əşyanı daşımaq kişiyə nöqsanlıq gətirməz!

Bir gün bir nəfər Həzrəti Əlidən (ə.) utana-utana:

– Ey Allah Rəsulunun Xəlifəsi! Nə üçün belə köhnə və yamağı olan əba ilə gəzirsiniz?

– Qəlbi dünyanın bəzək-düzəyindən təmizlənmiş adamlar mömünlərə nümunə olar?

Səhabələrdən Əhməd ibn Qeysin xatirələrindən:

– Bir gün Həzrəti Əlinin (ə.) evinə getmişdim. Tək oturub iftar açmışdı. Süfrəsində bir parça arpa çörəyindən başqa heç bir şey yox idi... Heyrət etdiyimi görüb buyurdular:

– Dövlət hakimlərinə yoxsulların qadaları ilə qidalanmaq vacibdir ki, kasıblar şikayət etməsin, varlılar isə öz var-dövlətləri ilə qürrələnməsinlər!..

Ertəsi gün Əmirəlmömünat üçün bir tabaq dolusu yemək apardım. Həzrəti Əli (ə.) nur çöhrəsindəki məmnuniyyət təbəssümləri ilə:

– Bu Allah ruzisinin rəngi də gözəldir, ətri də gözəldir. Yəqin ki, dadı da gözəl olmalıdır. Ancaq çox təəssüf ki, nəinki yeməyəcəyəm, heç dadmayacağam da. Sonra nəfsim alışar, həmişə istəmiş olaram!.. – deyə buyurmuşdur.

Təsəvvür edirsinizmi? Bir dövlət rəisi ona halal buyurulmuşlardan imtina edərək, xalqın yox-

sullarını düşünərək nəfsini hər cür nemətlərdən məhrum edir...

Həzrəti Əli (ə.) həm də hazırcavablılığı ilə məşhur olmuşdur. Bir gün şəhər civarında bir qatıra süvar olmuş Həzrəti Əliyə (ə.), sırtıq birisi rişxəndlə:

– Ya Əli! Sən ki, Allahın Aslanısan, belə bir qatıra minmək sənə yaraşarmı?

Həzrəti Əli (ə.) bədahətən:

– Hücum edənin qabağından qaçmayacaq qədər cəsur, qabağından qaçana hücum etməyəcək qədər alicənab olduqdan sonra, Allahın bəndəsinə belə qatır da yetər!

Bütün könüllərdə öz alicənablığı, öz elmi idrakı ilə taxt quran Həzrəti Əli (ə.) bir dəfə də belə demişdir:

– Geyimim sadə, şüarım Allah qorxusu, məskənim məscid, azuqəm aclıq, miniyim ayaqlarım, qəndilim Ay, oturub-durduqlarım elm sahibləri, dünya malından heç bir şeyə malik olmadan günlərim keçir və mən bunlardan xoşnud oluram. Bu günüm sabahlara qalsın deyənlərdən də deyiləm. Əvvəl-axır əcəl şərbətini içəcək adam üçün bunlar da çoxdur.

Bu sözlərdən sonra Peyğəmbərimiz:

– Ey Əli! Allah, qullarından heç kəsi səni sevdiyi qədər sevməyir. Bu sevgi Allah yanında məqbul olan nəfsinə hakim olmağından irəli gəlir. Bu nəfsə hakimlik səndə varkən nə sən dünyadan, nə də dünya səndən bir şey ala bilməyəcəksiniz!

Nəfsinə hakim olduğundan, Əli, hökm verməkdə hamınızdan üstündür!

Bir dəfə Peyğəmbərimiz səhabələri ilə məşvərət vaxtı, hüzuruna iki adam gəlir və ədalət istəyirlər. Birinin öküzü, o birinin öküzünü vurub öldürmüşdür. Öldürülmüş öküzün sahibi haqqının ödənməsini istəyir... Peyğəmbərimiz təbəssüm buyuraraq səhabələrin üzünə baxır: «Bir hökm verin!» – demək istəyir sanki...

Səhabələrindən biri:

– Allahın şüursuz heyvanlarının əməlinə görə sahiblərinə təzminat ödənilməz dedikdə, Peyğəmbər əfəndimiz:

– Şikayətlərinə sən bax, ya Əli!.. – deyir.

– Baş üstə, ey Allahın Rəsulu!..

Həzrəti Əli (ə.) şikayətçilərdən soruşur:

– Heyvanlar bağlı idilər, ya sərbəstdilər?

Hər iki şikayətçi bir ağızdan:

– Ölən öküz bağlı, öldürən öküz açıq idi.

Elm və hikmət sahibi Həzrəti Əli (ə.) hökmünü verir:

– Belə olan təqdirdə bağlı olan öküz sahibinə təzminat ödənilməlidir!

Peyğəmbərimiz hökmü bəyənir və bu təqdir ölçüsünü ifadə buyurur.

Yenə də bir gün Həzrəti Əlinin (ə.) hüzuruna iki kişi gəlir və nisbətən gənc olanı bu iddiada:

– Ey Allah Rəsulunun Xəlifəsi! Bu adam röyasında mənim anamı görərək, qüsl etməyə möhtac halına düşmüşdür. Haqqında İslamiyyət baxı-

mından nə kimi cəza lazımsa icra buyurun!.. Allahın Arslanı və Övliyalar Sultanı dərhal belə bir əmr verir:

– Şikayət olanı üzü günəşə qarşı tutun və kölgəsinə yüz qılınc vurun! Bundan sonra yuxuda hər gördüyünü, hər adama danışmasın!.. Şikayətçinin heyrətdən ağzı açıq qalır...

Elə bu ibrətamiz hadisədən sonra mənasını və yaranma tarixini bilməsək də «filankəs, filankəsin kölgəsini qılınclayır...» məşhur kəlamı geniş yayılmışdır.

Könülləri aydınlaşdıran, fikirləri ziyalandıran elm və təfəkkür sahibi Həzrəti Əlinin (ə.) ilhamla yazdığı ilahi şeirlər, söylədiyi xütbələr, irad etdiyi nitqlər ərəb ədəbiyyatının ən gözəl nümunələridir:

...Batilin hökmü bir saat, Haqqın hökmü Qiyamətə qədərdir...

...Qəlbin şəfası Quran oxumaqdadır...

...Allahdan ümid kəsmək, günahların ən böyüyüdür...

...Allahdan qorx, başqasından əmin olarsan...

... Allah kəlamı qəlbin dərmanıdır...

**...Elmsiz ibadətdə, təfəkkürsüz Quran oxumaqda xeyir yoxdur...**

...Nəfsindən qaç, bu aslan hücumundan qaçmağından daha faydalıdır...

...Nəfsinə düşman ol, rahat olarsan...

...Xoşbəxt insan, başqasından ibrət ala biləndir...

...Simic dövlətli, səxavətli dilənçidən də yoxsuldur...

...Mal sərxoşluğu, içki sərxoşluğundan daha şiddətlidir...

**...Mənə bir hərf öyrədənin kələsiyəm...**

**...Alim məclisləri cənnət bağçalarıdır...**

**...Bilməməklə bərabər, bilmədiyini də bilməyib özünü alim sayanlardan həzər...**

**...Ən gözəl ədəb - əxlaq, ən şiddətli yoxsulluq – axmaqlıq, ən vəhşi vəhşət - özünü bəyənmək, ən zəngin dövlət isə – elm və ağıldır...**

...Adam var ki, bilmir və bilmədiyini də bilmir. O, nadandır, belələrindən uzaq olun. Adam var ki, bilmir və bilmədiyini bilir. O, istəklidir, belələrini ərşad edin. Adam var ki, bilir və bildiyini də bilir. O, alimdir, belələrinə ittiba edin. Adam var ki, bilir və bildiyini bilmir. O, yuxudadır, belələrini oyadın...

**...Ağıl kimi dövlət, gözəl xasiyyət kimi dost, ədəb kimi miras, əxlaq kimi rəhbər, elm kimi şərəf yoxdur...**

Maraqlananlardan biri, bir gün Həzrəti Əlidən (ə.) soruşur:

– Ey baxış və görüş sahibi, Rəbbini gördünmü?

– Görmədiyimə ibadət etmərəm!

– Onu necə görə bildin?

– Gözlər Onu açıq-aydın görə bilməz. Ancaq qəlblər iman həqiqəti ilə Allahı idrak edə bilərlər!

Hikmət və elm dəryasına qərq olmuş xəlifələr xəlifəsi bir gün minbərdə xütbə oxuyarkən, məsciddəkilərdən bir nəfər Əmirəlmömündən nə isə soruşur. Həzrəti Əli (ə.) isə cavab verir ki:

– Bu haqda mən heç nə eşitməmişəm və heç nə bilmirəm.

Həmin adam qəzəb və hiddətlə bağırır:

– Qalxdığın minbər cahillərin yeri deyil!

Allahın Arslanı və Övliyalar Sultanı xoş bir təbəssümlə buyurur:

– Minbər bir şey bilən və bir şey də bilməyənin yeridir, hər şeyi bilirəm deyənlərin yeri deyil!

Göründüyü kimi Həzrəti Əlinin (ə.) çoxlu tərəfdarları olduğu kimi, əleyhdarları da az deyildi.

Məhəmməd Peyğəmbər (s.ə.s.) buyururdu:

«Həyatım kimi yaşamaq, ölümüm kimi ölmək istəyən və Cənnət arzulayan hər kəs Əli ilə dost olsun. Onun dostuyla da dost olsun və məndən sonra Əhli-Beytimə bağlansın. Çünki onlar mənim soyumdur. Tinətimdən yaradıldılar, anlayışımla və elmimlə mükafatlandılar. Hümmətimdən onların fəzilətini inkar edənlərə və onlarla haqqısalamı kəsənlərə əzab olsun... Allah belə müsəlmanları şəfaətimdən məhrum eləsin...».

## 3. HƏZRƏTİ ƏLİNİN (ə) İDEYALARINDA ŞƏXSİYYƏT VƏ ƏXLAQİ DƏYƏRLƏR

**Şəxsiyyətin ən yaxşı cəhəti əxlaqdır**
**Həzrəti Əli**

Fəlsəfi baxımdan bir insanın istəkləri onun şəxsiyyətini oluşturur. Amma xalq baxımından insanların şəxsiyyəti, özəl bir sifətin təcəllisi nəticəsində ümumiləşir. Məsələn, siyasi işlərdə güclü olan bir kimsənin siyasi şəxsiyəti vardır, əgər alim isə elmi şəxsiyyəti vardır. Psixologiyada insanın istək və sifətlərinin birbirlərinin üzərində sintez təşkil etdikləri ispatlanmışdır. Bundan dolayı bir şəxsin kişiliyini yaxşı bir şəkildə tanıtmaq üçün onun zahiri görünüşünün yanında ruhi və əxlaqi özəlliklərini də incələmək lazımdır.

Bu dediklərimizi göz önünə gətirərək Hz. Əlinin (ə) şəxsiyyət və özəlliklərini başa düşmək istəsək çətin bir məsələ ilə qarşılaşmış olarıq. Çünki Hz. Əlinin (ə) böyük ruhunda gizli olan böyük sifətlərə özümüz sahib olmadığımızdan bu sifətlərin özəlliyi bizim üçün məçhuldur.

Hz. Əli (ə) də bir insandı, amma o, digər insanlarda görülməmiş çox fərqli özəlliklərə sahibdi. Həzrəti Əlinin (ə.) işləri digər insanların işlərinə bənzəmirdi ki, digər insanlar da Onu özləriylə müqayisə edərək tanıya bilsinlər. O, insanları heyrətlərə düşürən bir çox sifətə sahibdi. Onun bu sifət-

ləri keçmişdə insanları heyrətə salmış və gələcəkdə də heyrətə salmağa davam edəcəkdir.

Bütün əməl və işləri dərk edilməyəcək dərəcədə ilgincdi. Qüvvətli olan kimsə başqasına təslim olmaz və başqalarının mənəm-mənəmliyinə dözməz. Çünki səbr acizlik qarşısındadır, qüdrət qarşısında deyil. Amma Hz. Əli (ə) son dərəcə güclü və qüdrətliykən, eyni zamanda sonsuz dərəcədə səbirli idi. Bu baxımdan belə bir məsələlərə möcüzə deməyib də nə deyə bilərik?

Ədib və şair olan bir kimsə savaşçı sifətini daşıyanmaz və savaş meydanında qılınc oynadammaz. Amma Hz. Əli (ə) bənzərsiz bir ədib və şair olmasına baxmayaraq ərəb qəhrəmanlarının qəlbi savaş meydanlarında Onun heybət və qorxusundan titriyirdi.

Həzrəti Əlinin (ə) zəngin irsində həm uşaqların, həm də böyüklərin təlim-tərbiyə və təhsili məsələləri geniş yer tutur. Onun tərbiyə ilə bağlı fikirlərində məqsəd insanı müdrikləşdirmək, ruhunu paklaşdırmaq, əxlaqını kamilləşdirmək, davranış və əməllərini salehləşdirməkdir. Bunun üçün insan özünü və Allahını dərk etməli, hər şeyə iman gözü ilə yanaşmalıdır. İman – könüllə tanımaq, dillə iqrar etmək, əza ilə də qulluqda olmaqdan ibarətdir. İman dörd dirək üstündə dayanır: səbr, yəqin, ədalət, cihad. Səbr dörd qisimdir: qovuşma həsrəti, qorxu, çəkinmək, hazır durmaq. Cənnətə qovuşmaq həsrəti olan dünya diləklərindən əl çəkir. Dünyadan çəkinən şəxs dünya müsibətlərini

heçə sayar. Ölümə hazır olansa, xeyirli işlər görər. Yəqin də dörd qisimdir: ağıllılıq, hikməti təfsir etmək, keçənlərdən öyüd almaq, keçənlərin yolunu izləmək. Bəsirət gözü açıq olana hikmət aydın olar. Hikməti açıq-aydın görən ibrət alar. İbrət alan isə keçmiş adamlar kimi hərəkət edər, dünyaya də aldanmaz.

Ədalət də dörd qisimdir: anlayışda dərinə varmaq, bilikdə dərin olmaq, aydın hökmlə qərar vermək, elmə dirənmək. Kim anlayış sahibi olarsa elmin dərinliyinə varar. Kim elmin dərinliyinə varsa hökmdə yol-iriz, nə isə əldə edər. **Helmli olanlar insanlar arasında tərtəmiz yaşar.**

Cihad da dörd qisimdir: doğrunu buyurmaq, pisliyi rədd etmək, gerçək işlərdə doğru olmaq, gerçəyə qulaq asmayanlarla düşmənçilik eləmək.

Həzrəti Əli (ə) buyurur ki, küfr də dörd dirək üzərində dayanır: doğru olmayan şeylərdə dərinə varmaq, qovğa yolunu tutub təkəbbür göstərmək, həqiqətdən uzaqlaşmaq, əks yol tutmaq. Şübhə də dörd dirək üstündə durur: batil üzrə vuruşmaq, qorxmaq, şübhəyə düşmək, azğınlığa təslim olmaq.

Əli (ə) uşağın fiziki və ruhi inkişafında ana südünün böyük təsir gücünə malik olduğunu bildirirdi. Ana südü uşaqda qorxusuzluq, təhlükəsizlik və rahatlıq yaratmaqla yanaşı uşaqla ana arasında məhəbbət tellərini möhkəmləndirir. Əli (ə) demişdir: «Baxın, övladlarınıza kim süd verir. Çünki uşaq onun südü ilə inkişaf edəcək. Axmaq qadı-

nı dayə tutmayın, çünki süd təbiətə, xasiyyətə üstün gəlir».

Ensiklopedik biliyə malik olan Nəsirəddin Tusi (1201-1274) «Əxlaqi-Nasiri» əsərində Həzrəti Əlinin (ə) bu fikrini sanki təkrarlayaraq yazırdı: «Uşaq olcaq ilk növbədə ona ... ağıllı və sağlam bir dayə tapmaq lazımdır, çünki pis adət və xəstəliyin çoxu süd vasitəsi ilə uşağa keçər:

**Südəmər bir uşaq tutmamış maya,**
**Tutmayın siz, axmaq, xəstə bir daya.**
**Süd ilə bədənə girərsə azar,**
**O, bədəndən, yalnız, öləndə çıxar!» (7, s.156).**

Ana südünün uşağın ruhi və psixoloji vəziyyətinə müsbət təsirini əsaslandıran Əli (ə) bir il doqquz aydan az müddətə uşağa süd verilməsini ona zülm etmək hesab etmişdir.

«Əli (ə) uşaqların yaş dövrlərini Aristotel və Məhəmməd Peyğəmbər (s.ə.s.) kimi yeddi-yeddi olmaqla üç yerə bölmüş, hər bir mərhələdə tərbiyənin məzmununu açıqlamışdır: uşağı yeddi il azad buraxın, yeddi il ədəb və tərbiyə öyrədin, yeddi il isə işlədin» (12, s.87). Məhəmməd Peyğəmbərin (s.ə.s.) «atanın övladına öyrətdiyi ən yaxşı şey ədəbdir» - fikrini Həzrəti Əli (ə) daha qüvvətləndirərək yazırdı: «Ata övladına yaxşı ad qoymalı, onun ədəb və əxlaqını gözəlləşdirməli, «Quran»ı öyrətməlidir. Yaxşı tərbiyə verməyi, təlim yolu ilə

onlara ədəb, əxlaq öyrətməyi valideynlərin əsas vəzifələrindən biri hesab edirdi:

**Verməsə övladına ana tərbiyət,**
**Onda qalar daima heyvaniyyət.**
**Olmasa fərzəndə ata çün kəfil,**
**Daim o fərzənd olacaqdır zəlil.**

O, yetim uşaqların tərbiyəsini unutmamağı tövsiyə edirdi («yetim uşağı öz övladını tərbiyələndirdiyin kimi tərbiyə et»). Özü övladlarına çıxış etməyi, nitq söyləməyi öyrədir, şeirlərini əzbərləməyə həvəsləndirirdi. Uşaqları itaət və ibadət etməyə alışdırmaqda tənbeh etməkdən və rəğbətləndirməkdən düzgün istifadə etməyi məsləhət bilirdi: «Evindəki kiçik uşaqlara dilinlə namaz və paklığı təlim et, elə ki, on yaşlarına çatdılar tənbeh et, lakin üç dəfədən artıq olmasın. Danlamağı ifrat həddinə çatdırmaq inadkarlıq odunu artırır».

Azərbaycanın bir çox maarifçi alim və pedaqoqları Həzrəti Əlinin (ə) ailə tərbiyəsi ilə bağlı, bu fikirlərini rəhbər tutmuş, əsərlərində onun təsirindən yan keçə bilməmişlər.

Həzrəti Əli (ə) uşaqları sevməklə yanaşı onlara qarşı tələbkar olmağı tələb edirdi: «**Tərbiyə ağacı yumşaq olanın övlad və təbbəələri tərbiyəsiz olar**», «**Ədəb insanın şəklidir**», «**İnsanlar öz ata-analarından çox, zəmanələrinə oxşayırlar**», «**Şəxsiyyətin ən yaxşı cəhəti əxlaqdır**», «**Əsil-nəcabətin ölçüsü ədəbdir**», «**Adam yanında birinə nəsihət etmək – onu dan-**

**lamaqdır», «Əxlaqsız adamın şərəfi olmaz», «Qeybətə qulaq asan qeybət edənlərdən biridir» və s.**

Həzrəti Əli (ə) uşaqların iffətli olmasında (mənəvi təmizliyində), hər cür pis əməllərdən uzaq böyüməsində onların cinsi tərbiyəsinin düzgün qurulmasını vacib bilirdi.

## 4. HƏZRƏTİ ƏLİ (ə.) ELM VƏ ELM ÖYRƏNMƏYİN FƏZİLƏTLƏRİ HAQQINDA

**Əli mənim elmimin, sirrimin heybəsidir**
**Məhəmməd Peyğəmbər**

Qeyd etdik ki, Məhəmməd Peyğəmbər (s.ə.s) Həzrəti Əlini (ə.) uşaqlığının ilk çağlarından yanına almış və onun təlim-tərbiyəsi ilə bir zat özü məşğul olmuşdur.

Həzrəti Əlini (ə.) Peyğəmbərimiz **«Əliyyül-Murtuza»** (Allah tərəfindən razı olunan), **«Şahi - Mərdan»** (Mərdlərin şahı), **«Ələmdar»** (Rəsulallahın şəxsi bayraqdarı), **«Əbu - Turab»** (Torpağın atası) kimi alicənab adlarla səsləmişdir.

Həzrəti Əlini (ə.) elm aləminin atası adlandırsaq heç də yanılmarıq. Çünki peğəmbərimiz də bu haqda buyururdu: **«Allah elmi on hissəyə böldü. Həzrəti - Əliyə doqquz hissə, bütün insanlara isə bir hissə verdi və Əli bu bir hissəni də onlardan yaxşı bilir...»** (6, s.71.). «Bəqərə» surəsinin 189-cu ayəsində deyilir: «Evlərə qapılardan daxil olun...» (1, s.27). Rəsuli - Əkrəm isə belə buyururdu: **«Mən elmin şəhəriyəm, Əli də o şəhərin qapısıdır. Şəhərə girmək istəyən, o qapıdan girsin»** (8, s.147).

Həzrəti Əli (ə.) özü də bu fikirlə bağlı deyrdi: «Rəsuli - Əkrəmə (s) əlimdən gələn qədər canımı fəda etdim; bütün gücümlə onun düşmənləriylə

vuruşdum, nəfsimlə onu qorudum, o da məndən başqa kimsəyə nəsib olmayan elmini fəda etdi» (2, s.397).

Həzrəti Əli (ə) elm, bilik, onlara yiyələnmək yolları ilə bağlı orijinal fikirlər sahibidir. Bəqərə surəsinin 189-cu ayəsində «Evlərə qapılardan girin» əmri vardır. Məhəmməd Peyğəmbər (s.ə.s.) isə «Mən hikmət eviyəm, Əli qapısıdır, məndən sonra mənim təbliğ etdiyim şeyləri sizə açıq-aydın bildirəndir; onu sevmək imandandır: ona qarşı çıxmaq isə nifaqdır» - deyə buyurmuşdur. Həzrəti Əli (ə) buyururdu ki, elm iki cürdür: anadangəlmə və eşidilib öyrənilən. Anadangəlmə qabiliyyət yoxdursa, eşitməklə öyrənilən elm fayda verməz. **Elm tükənməyən bir xəzinədir; ağıl əksilməyən, köhnəlməyən bir libas. Az elmi olub bildiyinə əməl edən, çox elmi olub əməl etməyəndən xeyirlidir.** Ölç, biç sonra kəs, düşün, daşın, sonra danış; anla, bil, sonra et. **Elm insanı pislikdən qoruyar. Elm gizli olmayan gözəllikdir. Hər bir qab dolar, elmin qabı isə əksinə, dolduqca genişlənər. Alimin xətası dəryada sınıq gəmiyə bənzər, həm özü qərq olar, həm də gəmidəkilər.** Elmlə var-dövləti müqayisə edən Həzrəti Əli (ə) elmin yeddi cəhətdən maldan üstün olması fikrinə gəlir: **1) elmi xərcləməklə azalmaz, mal isə azalar; 2) elm peyğəmbərlərdən mirasdır, mal isə zalımlardan, hakimlərdən; 3) elm sahibini hifz edər, malı isə sahibi hifz edər; 4) bütün insanların elm sahibinə ehtiyacı var, amma mal sahibinə yox; 5) elm insan öləndə də onunladır, mal isə bu**

**dünyada qalandır; 6) elm insan üçün qiyamətin çətinliklərini və sirat körpüsünü keçməyi asan edər, mal isə ona mane olar; 7) elm hakimdir, mal isə hökm altında olandır, məğlubdur.**

Həzrəti Əli (ə) əqli Allah təalanın insana bəxş etdiyi ən yüksək qismət hesab edirdi. Çünki əqli kamil olanların əxlaqı və əməli pak olur. Əql insana ziynət verir.

**Elm, ədəbdir kişinin ziynəti**
**Elmü ədəb olmasa yox rahəti**
**Gözəlliyin, ziynət, elmü ədəb**
**Elmü, ədəbdir kəmalə səbəb**

**Deyil yetim o kəs ki, eylər mədar**
**Ölüb atası, çün olub dilfikar**
**Yetim odur, onda yox elmü ədəb**
**Elm, ədəblə ola sahib nəsəb.**

O, elm öyrənməyi insanın kamilliyinin və fəzilətinin, ədəbli olmağının, zəfər çalmağının əsas şərti hesab edirdi:

**Fəzli, ədəb zahir edər, neyki zər**
**Elmü ədəb yetir kamala ki, ta**
**Fəzl sənə hasil ola ey bəsa**
**Fəda sənə, kəsb elə elmu ədəb**
**Taki sənə faidə versin nəsəb**
**Elmu ədəb gər edəsən ixtiyar**
**Fəzilətin artıq olar, bişomar**

**İki əlin gər tar elmə zəfər**
**Qılar səni, elm ədəb baxəbər**

Həzrəti Əli (ə) həm dini, həm də dünyəvi elmlərin öyrənilməsini vacib bilirdi:

**Yəni iki elm deyib Mustəfa**
**Hər biri, bir növ ruha gəza**
**Birisi ədyan, birisi elm din**
**Eylə tələb məkanı gər olsa Çin**
**Ədəbdi hər iki elmə səbəb**
**Bu iki elm olmasa, olmaz həsəb**
**Eylə tələb hər iki elmi ki, ta**
**Xəlq bilə cümlə səni rəh numa** (3, s.41).

Həzrəti Əli (ə) elmli insanların daim öz helmini artırmağını, əqli xəstə olanlarla mübahisə etməməyini, ona pislik edənlərə yaxşılıq etməyi, başqalarının nəsihətinə qulaq asmağı, təkəbbürdən, paxıllıqdan, məkr və hiylədən, haramdan uzaq olmağı, dilini pis şeyə öyrətməməyi, insanlar arasında başqalarını danlamamağı (hətta nəsihət etməməyi), vəfalı olmağı, qəlbi çətin şeylərə məcbur etməməyi məsləhət bilirdi:

**...Səfeh çün eylədi cəhlin ziyad**
**Helmini artırmağı sən eylə yad**
**Helmin edər qiyməti qədrin əyan**
**Elmini, helmin dəxi eylər bəyan**

**Ud necə odda yanıb eylər ad**
**Ətri nə qədri ola eylər ziyad...**

Bir gün elm və hikmət sahibi Həzrəti Əli (ə.) atına minməyə hazırlaşarkən, bir ayağı yerdə o biri ayağı üzəngidə olduğu halda bir yəhudi riyaziyyatçı ona:

– Ey bütün biliklərə sahib olan İmam! Mənə elə bir ədəd de ki, 1-dən 10-a qədər bütün rəqəmlərə bölünsün və qismət qalıqsız olsun.

Həzrəti Əli (ə.) elm aynası olan parlaq üzünü yəhudi alimə çevirərək:

– İstədiyin ədədi tapa bilsəm, müsəlman olarsanmı?

– Bəli, olaram ey İmam!

– Onda həftənin günlərini vur çevrənin tam dərəcəsinə. Və o biri ayağını da üzəngiyə keçirib, atına mindi. Yəhudi 7-ni 360-a vurub 2520 ədədini aldı, sonra yenə də fikrində: 2520 : 1 = 2520, 2520 : 2 = 1260, 2520 : 3 = 840, 2520 : 4 = 630, 2520: 5 = 504, 2520 : 6 = 420, 2520 : 7 = 360, 2520 : 8 = 315, 2520 : 9 = 280, 2520 : 10 = 252...

Heyrət və dəhşətlər içində, yəhudi alim diz çökərək: – Ey elmi büllurlardan duru İmam! Verdiyim vədə əməl edib, müsəlman oldum! İslamı qəbul edirəm! Bir müsəlmanın da artdığından xoşbəxtlik duyan Həzrəti Əli (ə.) atını çapıb, gözdən itir.

Həzrəti Əli (ə.) elmi hər şeydən üstün tutmuşdur. Bir gün müasirlərindən on nəfər bir yerə

toplaşaraq ayrı-ayrılıqda Həzrəti Əlidən (ə.) **elmin maldan nə üçün üstün olduğu səbəbini sorurlar.**

Həzrəti Əli (ə.) birinciyə bu cavabı verir:

– Elm peyğəmbərlərdən, mal isə Harun və Faraonlardan mirasdır!

İkinciyə:

– Elm sahibini, malı isə sahibi qoruyur!

Üçüncüyə:

– Elm sahibinin dostu, mal sahibinin isə düşməni çox olar!

Dördüncüyə:

– Xərclədikcə elm artır, mal isə əksilir!

Beşinciyə:

– Elm sahibi şərəfli ünvanlar, mal sahibi isə simic və xəsis kimi ad qazanır!

Altıncıya:

– Elmin oğrudan qorunmasına lüzum yoxdur, malın isə qorunması vacibdir!

Yeddinciyə:

– Zaman keçdikcə elm cilalanır, mal isə çürüyüb tələf olur!

Səkkizinciyə:

– Elm qəlbi qüvvətləndirir, mal isə əksinə, zəiflədir!

Doqquzuncuya:

– Elm təvazökarlıq, mal isə lovğalıq yaradır!

Onuncuya:

– Elm insanda mərhəmət, mal isə xəbislik doğurur!

Və əlavə edərək: – Nə qədər ki, ömrüm var, gəlib elm haqqında nə soruşsanız hər birinizə hər gəlişinizdə başqa-başqa cavablar verəcəyəm, inşaallah! – deyir. Müasirlər bir ağızdan: – Cənabi Əli (ə.) elmlərə sahibdir, nəfsinə hakimdir, sözünə sadiqdir, hökmünə adildir!..

Bir gün bir başqa səhabələr dəstəsi yenə də şərtləşərək elm və hikmət incisi Həzrəti Əlidən (ə.) soruşdular: Göydən daha ağır, yerdən daha geniş, dənizdən daha zəngin, daşdan daha sərt, atəşdən daha isti, buzdan daha soyuq, zəhərdən daha acı nə var?

Xəlifələr Xəlifəsi bu cavabı vermişdir:

– Təmiz və namuslu adama böhtan atmaq, göydən daha ağırdır. Haqq, yerdən daha genişdir. Qənaətkar adamın qəlbi, dənizdən daha zəngindir. Yalançının ürəyi daşdan daha sərtdir. Zalım və ədalətsiz hökmüdar, atəşdən daha yandırıb-yaxandır. Səbr, buzdan daha soyuqdur. İkiüzlülük, zəhərdən də acıdır...

Həzrəti Əli (ə.) elmi tükənməyən bir xəzinəyə, ağlı isə əksilməyən, köhnəlməyən bir libasa bənzədir. Yuxarıda qeyd etdik ki, elmin ustadı elmin özünü də iki yerə bölürdü: anadangəlmə elm (fitri istedad) və eşidilib öyrənilən elm... İnsan elm təhsil edəndə müəllimin dediklərini eşidib öyrənir, bu eşidilən elmdir. Lakin insanın özündə fitri istedad, təbii bir qabiliyyət də olmalıdır ki, eşitdiklərini başa düşsün, bu təbii elmdir. Qeyd etdiyimiz kimi təbii elm olmasa, eşidilən elmin faydası ol-

maz, yəni insanın özündə qavrama qabiliyyəti olmasa, eşitdiyi elmdən heç bir fayda hasil olmaz.

Məhəmməd Peyğəmbər (s.ə.s.) Adəm peyğəmbərin elmini, Nuh peyğəmbərin hikmətini və İbrahim peyğəmbərin həlimliyinin Həzrəti Əlidə (ə.) cəm olduğunu qeyd edərək buyurur: «Kim istəsə ki, Adəmə (s) – elminə görə, Nuha (s.) – hikmətinə görə, İbrahimə (s.) – hilminə görə nəzər salsın, o şəxs Əliyyibni Əbu – Talibə baxsın» (8, s.11).

Həzrəti Əli (ə.) elmin bir daha fəzilətləri haqqında buyurur: **«Yetim atası olmayan deyil, elmi və ağlı olmayandır», «Elmli gənc, nadan ağsaqqaldan xeyirlidir», «Ataların övladları üçün qoyduqları mirasın ən şərəflisi elm və ədəbdir», «Elm, dünyanın ən zəngin xəzinələrindən qiymətli olduğu halda, havayı satılır və havayı alınşərafətliır...»**.

Həzrəti Əli (ə.) elm və elm öyrənməyin mənfəətindən xeyli bəhs etdikdən sonra əlavə edərək deyir: **«Elm şərafətli və əziz mirasdır»** (4, s.16).

Bütün bu deyilənlərdən belə nəticəyə gəlirik ki, həcmcə qısa, mənaca böyük olan bu ibrətamiz kəlamlar məna etibarı ilə zəngin bir əsəri xatırladır. Həzrəti Əli əleyhissəlamın kəlamları, dərinliyi məlum olmayan bir dəryadır. Buna görə də həmin kəlamlar öz dövrü üçün son dərəcə necə mütərəqqi ifikirlər idisə, bu gün də bu fikirlər və ideyalar öz təsir gücünü itirməmiş, eləcə də təravətli kəlamlar, nəsihətlər olaraq qalmaqdadır.

## 5. HƏZRƏTİ ƏLİDƏ (ə) ƏQLİ TƏRBİYƏVİ FİKİRLƏR

**Əqli çox olanın sözü az olar. Əqli az olanın oyunu və zarafatı çox olar.**

**Həzrəti Əli**

Həzrəti Əlinin (ə) əqli-tərbiyə ilə bağlı fikirləri bütöv bir sistemdir. Nümunələrə diqqət yetirək: «Ağıldan faydalı dövlət, özünü bəyənməkdən qorxunc yalqızlıq, tədbir kimi ağıl, gözəl xasiyyət kimi yaxın dost, ədəb kimi miras, qabiliyyət kimi başçı, yaxşı işlər görmək kimi alış-veriş, savab kimi iş, haramdan özünü gözləmək kimi zahidlik, düşünmək kimi bilgi, utanmaq və səbr etmək kimi iman, könül mütiliyi kimi əsil-nəcabət, bilgi kimi ucalıq, **elm kimi üstünlük, danışmaq kimi arxa ola bilməz», «Əqli çox olanın sözü az olar», «Əqli az olanın oyunu və zarafatı çox olar», «Yaxşılıq ilə azad adamı qul eləmək olar», «Ən böyük dövlət - ağıl, ən böyük yoxsulluq - nadanlıq, ən böyük irs - tərbiyə, ən böyük köməkçi vaxtında verilən məsləhətdir», «Ağıllının dili könlünün altında, axmağın könlü isə dilinin altındadır»**, «Ürəyi açıqlıq və üzü gülər olmaq məhəbbətin torudur ki, insanları onunla ovlamaq olar», «Hər bir insanın qiyməti onun etdiyi yaxşılıqlarla ölçülür», «Hər bir adam öz dilinin arxasında gizlənmişdir», **«Danışanın özünə yox, sözünə daha çox diqqət et»**, «Təkəbbürlü adamı heç kəs tərif etməz».

Həzrəti Əlinin (ə) oğlu İmam Həsənə (ə) nəsihəti də tərbiyəvi baxımdan böyük əhəmiyyət kəsb edir. O, buyururdu: «Əziz oğlum, məndən dörd şey öyrən, işlədiyin zaman sənə zərər verməyəcək dörd şeyi də ağlında tut: zənginliyin ən üstünü ağıldır; yoxsulluğun ən böyüyü axmaqlıqdır; qorxulu şeylərin ən qorxulusu özünü bəyənməkdir; nəslin-kökün ən ucası gözəl xasiyyətdir. Əziz oğlum, axmaqla dost olmaqdan çəkin: o, sənə fayda vermək istərkən zərər yetirər. Xəsislə dost olmaqdan çəkin: ona ən çox möhtac olduğun zaman köməyə gəlməz. Pislik edənlə dost olmaqdan çəkin: o, səni çox ucuz bir şeyə satar. Yalançı ilə dost olmaqdan çəkin: çünki, o ilğıma bənzər: sənə uzağı yaxın göstərər, yaxını isə səndən uzaqlaşdırar» (2, səh. 406).

Həzrəti Əli (ə) Süffeyndən qayıtdıqdan sonra İmam Həsənə (ə) yazdığı vəsiyyətnamə əxlaq kodeksini xatırladır. Böyüyən nəslin əxlaqi cəhətdən saf, iffətli, namuslu, öz nəfsinə hakim, mənəvi cəhətdən yetkin, fiziki cəhətdən sağlam böyüməsində, özünü və Allahını dərk etməsində, şər işlərdən, mənfi keyfiyyətlərdən uzaq olmasında həmin vəsiyyətnamənin böyük rolu vardır. Ona görə də onu olduğu kimi verməyi məsləhət bilirik:

«Zamanın çətinliyini təsdiq edən, keçici olduğunu bilən, ömrü sona çatan, taleyə boyun əyən, dünyanı qınayan, ölülər yanında mənzil tutan, sabah isə bu dünyadan köçüb gedəcək olan fani atadan. İstədiyini əldə edə bilməyən, həlak olub köçənlərin yoluyla gedən, xəstəliklərə hədəf olan, za-

mana girov qoyulmuş, müsibət oxlarına nişangah olmuş, dünyaya dustaq olub şübhəyə düşən, aldanıb qalan, ölümə borclu və əsir, möhnətlərə giriftar, qəm-qüssəyə yoldaş, bəlalara nişan, diləklərinin ayağına düşmüş, ölülərin yerində oturan oğula.

Dünyanın məndən üz çevirdiyini başa düşmüşəm, zəmanənin mənə qarşı itaətsizlik etdiyini bilmişəm. Belə qənaətə gəlmişəm ki, axirət mənim halıma məndən başqasını düşündürməyəcək, yerimdə qalanların yadına salmayacaq, öz dərdimlə bütün insanların dərdini mənə unutduracaq. Bu, oyuna bənzəməyən bir işi, yalana çıxmayacaq bir həqiqəti mənə aşkar etdi, onun uğrunda çalışmağıma səbəb oldu. Səni vücudumun bir parçası kimi gördüm, hətta canım, bədənim hesab etdim.

Sənə bir müsibət gəlsə, mənə gəlmiş olar, ölüm sənə gəlib çatsa, məni aparmış olar. Sənin haqqında düşünməyim mənə özümü unutdurmuşdur. Ölsəm də, qalsam da, əməl etməyini diləyərək bu vəsiyyətnaməni yazdım.

Oğlum, sənə tövsiyə edirəm ki, Allahdan qorxasan, Onun əmrlərinə itaət edəsən, Onu yada salaraq qəlbini pak saxlayasan, Onun ipindən tutasan, səninlə Allah arasında ondan daha saf hansı səbəb, hansı vasitə ola bilər ki?

**Qəlbini öyüdlə dirilt, zahidliklə öldür, bütöv inamla qüvvətləndir, hikmətlə işıqlandır, ölümü yada salmaqla alçalt, yox olacağına inandır.** Dünya dərdləriylə uzaqgörən et, zamanın hücumundan, gecəylə gündüzün pis keçməsindən çəkindir onu. Köçüb

gedənlərin vəziyyətini anlat, göstər ona. Səndən əvvəlkilərin başlarına gələnləri söylə ona. Gəlib köçənlərin ölkələrində gəz, onlardan qalan şeyləri gör. Nələr tikdiklərini, hardan köçdüklərini, hardan ayrıldıqlarını, haraya düşdüklərini seyr et. Görəcəksən ki, onlar dostlardan ayrılmışlar, qürbət diyarına köçmüşlər. Az müddət sonra sən də onlardan biri kimi olacaqsan. Bəs belə isə, düşəcəyin yeri səhmanla, axirətini dünyaya satma.

**Bilmədiyin şey haqqında söz söyləmə, lazım olmadığı zaman söhbətə girişmə.** Azmaqdan qorxduğun bir yola düşmə. Çünki azıb, məəttəl qaldığın zaman o yoldan qayıtmaq, qorxulu yerlərə çatmaqdan daha yaxşıdır.

**Yaxşı işlər əmr et ki, yaxşılardan olasan. Yamanlığı əlinlə, dilinlə qadağan et ki, qınayan bunu qınaya bilməz. Harada olursa-olsun, həqiqət uğrunda çətinliklərin ən çətininə döz, dinin hökmlərini öyrən. Bütün işlərdə Allaha sığın.** Belə etsən, hamıdan üstün bir qoruyucuya, hamıdan üstün bir qadağan edənə sığınmış, söykənmiş olarsan.

Allahdan istədiyin şeyi təkcə Ondan istə ki, vermək də onun əlindədir, verməmək də. Xeyri çox dilə. Vəsiyyətimi anla, **başqa yollara yönəlmə**, çünki **sözün xeyirlisi fayda verənidir**. Bil ki, **fayda verməyən bilikdə xeyir yoxdur**. Bilinməsi məsləhət olmayan bilikdən də faydalanmaq mümkün deyildir.

Oğlum, mən qocaldığımı, zəifliyimin get-gedə artdığını görəndə sənə vəsiyyət etməyə başladım. Ürəyimdəkiləri sənə deməmişdən əcəlim çatar, ya-

xud bədənim kimi, fikrim də zəifləyər, ya da arzuların puça çıxması, dünya fitnələrinin gəlib yetişməsi əngəl olar, sən də söz eşitməz, başaparan dəvəyə dönərsən, deyə bu vəsiyyətləri yazmağa girişdim. Çünki **cavan adamın könlü heç nə əkilməmiş sahəyə bənzər – nə əksən, bitər, boy atar**. Mən də, könlün diləklərə qapılıb bərkiməmiş, ağlın dünya dərdlərinə düşməmiş təcrübə edənlərin çalışıb-əlləşib sınaqlarla əldə etdikləri ədəb-ərkanı sənə söyləməyə başladım. Bununla sən arayıb-axtarmaq zəhmətinə düşməzsən, təcrübə dava-dərmanıyla sağalmağa möhtac olmazsan. Bizim yetişdiyimiz şey sənə çatar və bizim üçün bəzən qaranlıq qalan şey sənə aydın olar.

Oğlum, məndən əvvəlkilər qədər yaşamasam da, onların etdiklərinə baxmışam, xəbərlərini öyrənmişəm, başa düşmüşəm. Əsərlərini seyr etmişəm. Belə-belə onlar kimi olmuşam. Hətta sanki, birincisindən sonuncusuna qədər onlarla birgə ömür sürmüşəm. **Halallarının safını bulağından ayırmışam, faydalısını ziyanlısından seçmişəm**. Hər işin vacibini, ən gözəlini öyrədirəm sənə. Üstündə əsən bir ata kimi səni düşündüyümdəndir ki, istəyirəm, sənə öyrədəcəyim sifətlərə malik olasan. Hələ gəncsən, ömrün uzundur. **Zamanın sənə yar olmasını, gözəl və sağlam bir niyyətə, tər-təmiz bir ruha sahib olmağını diləyirəm. Öncə, üstün və ulu Allahın kitabını öyrənməyini, təvilini bilməyini, İslam şəriətini və hökmlərini, halalını-haramını yaxşı-**

**ca anlamağını vəsiyyət edirəm.** Vəsiyyətimə bununla başlayıram, bundan başqa bir şeylə başlamıram.

Sonra ondan qorxdum ki, insanları bir-birindən ayırıb şübhələrə salan rəy və həvəs sənə də hücum çəkib şübhələrə düçar etsin. Buna görə də səni xəbərdar etməyi, görmədiyim halda onlardan sənə söz söyləməkdən daha üstün tutdum. Arzu edirəm ki, Allah doğru yolu tapmağında, dilədiyin dərəcəyə çatmağında sənə uğur versin. Bu vəsiyyəti pozmağı sənin öhdənə buraxıram.

Oğlum, bil ki, vəsiyyətimdən əməl edəcəyin şeylərin ən sevimlisi **Allahdan çəkinməyin, Allahın buyruqlarını yerinə yetirməyin, səndən öncə gəlib gedən babalarının əhlibeytindən pak adamların yolunu tutmağındır.** Onlar etdiklərinə diqqət yetirmişdilər, sənin fikirləşdiyin kimi. Sonra onlar içindən çıxa bilməyəcəkləri şeylərdən əl çəkdilər, şübhəli gördüklərindən vaz keçdilər. Ancaq onların yolunu tutmasan, nəfsin səni buna məcbur etsə, yaxşıca anlamaq, yaxşıca öyrənmək şərtiylə bu yolu tut. Şübhələrə uymaq, düşmənliklərə düşmək yoluyla yox. Belə bir işə girməzdən əvvəl Allahdan yardım istə, rizasına layiq olmağın, səni şübhəyə salacaq hər cür uğursuzluğa düşməməyin, səni azğınlığa aparacaq şeylərdən qurtulmağın üçün müvəffəqiyyət dilə. Könlünün paklığa çatdığına yaxşıca inandıqdan, ağlına batdıqdan, fikrin o işdə cəm olduqdan, bütün düşüncələrin vahid düşüncə halına gəldikdən sonra sənə öyrətdiklərimə bax, onları xatırla. O iş könlünə xoş gəlməsə, baxışına, düşüncənə uyğun

olmasa, bil ki, gecə vaxtı gözü görməyən dəvə kimi bilmədən addım atırsan, qaranlıqlara dalırsan. Dini istəyən adamın addım atması, haqla batili bir-birinə qarışdırması caiz olmaz. Bu işdən əl çəkmək daha doğrudur. Oğlum, vəsiyyətimi yaxşı anla.

Onu da bil ki, **ölümün sahibi həyatın da sahibidir. Yaradan, öldürəndir. Yox edən, yenidən dirildəndir. Dərd verən, sevindirəndir**. Dünya elə bir yurddur ki, Allah orada nemətlər verir, ancaq sınaqlara da çəkir. Orada etdiklərimizə axirətdə qarşılıq kimi mükafat verir. Allahın dilədiyi və sənin bilmədiyin bir çox şeylər də vardır ki, izah edilə bilməz. Bu işlərdən biri səni şübhəyə saldıqda, bunu o adama ver ki, onu tanımırsan. Çünki **sən əvvəlcə biliksiz yaradılmışdın, sonradan bilik sahibi olmusan.** Çox şeylər var ki, bilməzsən. O işlərdə nə edəcəyini bilməzsən. Gözün görməz olar, sonra da görüb anlayarsan. **Səni yaradandan, sənə ruzi verəndən, sənin yaradılışını nizamlı bir hala gətirəndən yapış, ona qulluq elə, rəğbətin ona yönəlsin, qorxun ondan olsun.**

Ondan razı ol ki, səni bolluğa çatdırsın, qurtuluşa yönəltsin. Mən sənə öyüdümü əsirgəmirəm, ancaq sən özünə nə qədər diqqət yetirirsən yetir, xeyrini mənim qədər görə bilməzsən.

Bunu da bil ki, oğlum... **qüdrətdə ona** (Allaha – K.C.) **qarşı duran bir varlıq yoxdur**. O, zavala uğramaz, əbədidir. Hər şeydən əvvəldir. Əvvəlinə bir əvvəl ola bilməz.

Zatı o qədər ucadır ki, Rəbb olmasını könüllə, gözlə qavramağa ehtiyac yoxdur. Bunu yaxşıca öyrəndikdən sonra, sənin kimi qədri kiçik, qüdrəti çox, acizliyi çox, Rəbbinə ehtiyacı böyük olan bir adama necə hərəkət etmək lazımsa, o cür hərəkət et.

Ona itaət etməkdə, əzabından qorxmaqda, cəzasından çəkinməkdə o cür davran. Çünki o sənə ancaq gözəl şeyləri buyurmuşdur, səni ancaq çirkin şeylərdən çəkindirmişdir.

Oğlum, dünyaya, dünyanın halına, zavala uğrmasına, haldan-hala düşməsinə dair sənə xəbərlər verdim. Axirətdən, axirət əhlinə hazırlaşanlardan da səni xəbərdar etdim. İbrət almağın, ona uyğun hərəkət etməyin üçün ikisinə dair sözlər söylədim, misallar gətirdim. Dünyanı sınaqdan çıxaran, dünya halını bilən adam, uçuq-sökük, qıtlıq və darlıq olan bir yerdən yola düşən kütləyə bənzər. Yolun zəhmətinə qatlanar, dostların ayrılığına dözər, səfərin çətinliyinə səbr edər, yolda xoşa gəlməyən ərzaqla kifayətlənərlər. Axırda isə gen-bol, ürəkaçan bir yerə çatıb məskən salarlar. Artıq onlar üçün bu səfərin nə qüssəsi qalmışdır, nə də bir çətinliyi və zərəri. Onlar üçün düşəcəkləri yerə yaxınlaşmaqdan daha sevimli, gedəcəkləri yerə yetişməkdən daha yaxşı bir şey yoxdur. Dünyaya aldanan adamsa, naz-neməti bol, abad bir mənzildən qıtlıq, qupquru bir yerə köçən kütləyə bənzər. Onlar üçün əvvəlcə olduqları yerdən ayrılmaqdan da-

ha pis, qəfildən elə bir yerə gəlməkdən daha ağır bir şey ola bilməz.

Oğlum, **nəfsini özünlə başqaları arasında bir tərəziyə döndər. Sənə edilməsini, başına gəlməsini sevdiyin, istədiyin şeyi başqaları üçün də sev, istə. Sənə edilməsini, başına gəlməsini istəmədiyin şeyləri onlar üçün də istəmə. Necə ki, özün zülmə düçar olmağı istəməzsən, eləcə sən də başqalarına zülm etmə. Necə ki, sənə yaxşılıq edilməsini istəyirsən, sən də eləcə başqalarına yaxşılıq et**. Başqasında görüb, eşidib çirkin saydığın şeyi özün üçün də çirkin bil. Sənə edilməsinə razı olacağın şeyi insanlara da et. **Bildiyin az da olsa, zərəri yoxdur**, ancaq **bilmədiyini söyləmə**. Sənə deyilməsini istəmədiyin şeyi sən də başqalarına demə.

Bil ki, **özünü bəyənmək doğru yoldan azdırar, ağla ziyan gətirər. Qazanc etməyə çalış, qulluq elə, başqaları üçün xəzinə yığmaqla məşğul olma. Doğru yola yönələn zaman Rəbbinin qarşısında daha artıq əyil. Bil ki, qarşıda uzaqdan uzaq, çətindən çətin bir yol vardır. O yola azuqəsiz düşməməyin, ancaq yükünü yüngül etməyin gərəkdir. Apara bilməyəcəyin yükü götürmə. Yüklənsən sənə ağırlıq edər**. Kasıb-kusub adamlardan qiyamət günü sənin azuqəni yüklənəcək birini tapsan, onu qənimət bil. Sabah ona möhtac olduğun vaxt o azuqəni sənə qaytarar. Ona çox kömək et, qüdrətin varkən et bunu, çünki sonra onu axtarsan da tapmazsan. **Əlində pul varkən səndən borc istəyənə ver. Dara düşəndə o sənin borcunu ödəyər. Bil ki, qarşında sərt bir keçid var.**

**Orada yükü yüngül olanın halı yükü ağır olanın halından yaxşıdır. Orada ləngiyənin halı tez keçəndən yamandır. O keçid səni mütləq ya cənnətə aparacaqdır, ya da cəhənnəmə atacaqdır. Məskən salmazdan öncə özünə mənzil hazırla. Ora getməzdən əvvəl azuqəni hazırla. Çünki ölümdən sonra bir xoşluq diləməyin faydası olmadığı kimi, dünyaya qayıtmaq da mümkün deyil.**

Bil ki, göylərin, yer üzünün xəzinələri əlində olan, sənə dua etmək üçün izin vermiş, bu duanı qəbul edəcəyini də vəd etmişdir. İstəməyini əmr etmişdir – istədiyini vermək üçün. Rəhm diləməyini əmr etmişdir – sənə rəhm etmək üçün. Səninlə öz arasına heç bir pərdə çəkməmişdir. Onun dərgahında sənə şəfaət göstərə biləcək heç kimə səni möhtac etməmişdir. **Pis bir iş tutarsansa, tövbə etməyi sənə qadağan etməmişdir. Sənə əzab verməkdə tələsməmişdir. Tövbəylə ona üz tutsan, rədd etməz. Suç üzündən tövbə etsən, qəbul edər. Günahını üzünə vurmaz. Rəhmətindən səni məyus etməz. Hətta günahından keçməyi də bir savab sayar. Etdiyin yamanlığa qarşı bir günah yazar, tutduğun yaxşı işin əvəzində on savab verər.**

**Sənə tövbə qapısını açmış, üzrünü qəbul etməyi vəd etmişdir. Onu çağırsan, səsini eşidər. Gizli yalvarsan, ürəyindəkini oxuyar. Ehtiyacını ona deyərsən, ürəyindəkini ona açarsan, dərdlərindən ona şikayət edərsən, sıxıntıdan qurtarmağını ondan xahiş edərsən, işlərində ondan yardım dilərsən, ömrün uzunluğu, bədənin sağlamlığı, ruzinin bolluğu kimi**

**başqasının verə bilməyəcəyi şeyləri ondan gözlərsən.** Xəzinələrinin açarını da sənin əllərinə verərək ondan diləməyə sənə izn vermişdir. Nə vaxt istəsən, **dua ilə nemətlərinin qapılarını açarsan,** şoran dilək tarlasını suvarmaq üçün rəhmətini istərsən. **Nemətləri gecikə də, ümidini kəsməməlisən, çünki vergi və ehsan niyyətlə bərabərdir**. İstəyinin əcrinin çoxalması, umana daha artıq ehsan edilməsi üçün nemət gecikər. Olar ki, bir şeyi çox istəyərsən, verilməz, fəqət tez bir zamanda ondan daha xeyirlisi verilər.

Çox şeylər vardır ki, sən onu istərsən, ancaq verilsə, onun üzündən dininə xələl gələr. Bu halda, **gözəlliyi sənə qalacaq, vəbalı səndən gələcək şeyi istəməməlisən. Mal sənə qalmaz, sən də əbədi olaraq mala sahib ola bilməzsən.**

Bil ki, **sən dünya üçün yox, axirət üçün yaradılmısan. Qalmaq üçün deyil, yox olmaq üçün xəlq edilmisən. Yaşamaq üçün yox, ölüm üçün varsan. Elə bir mənzildəsən ki, oradan çıxarılıb atılacaqsan. Elə bir evdəsən ki, orda əmrə hazır olacaqsan. Elə bir yoldasan ki, o yolla axirətə gedəcəksən. Sən ölüm üçün bir ovsan. Qorxan ondan qurtula bilməz, istədiyini gec-tez tapar, əvvəl-axır gəlib çatar. Ondan qorx**. Qorx ki, pis bir iş görərkən, öz-özünə «tövbə etməyim lazımdır» deyərkən gəlib çatmasın. Yoxsa özünü fəlakətə uğradarsan.

Oğlum, **ölümü çox yada sal. Qəfildən düşəcəyin halı zikr et. Ölümdən sonra o hala düşəcəksən. Onu qarşında bil, gördüyünü zənn et ki, silahını taxdığın, kəmərini bağladığın bir halda tapsın səni,**

**qəfildən gəlib üstünü almasın. Ehtiyatlı ol, dünya əhlinin dünya ilə baş qatması, dünyadan beşəlli tutması səni aldatmasın.** Əlbəttə, Allah dünyanı sənə anlatmışdır. Əlbəttə, dünya da özünü tanıtmışdır sənə. Yamanlıqlarını açıb-ağartmışdır, göstərmişdir sənə. Dünya əhli ancaq hürən, dartınan köpək, ov dalınca qaçan canavardılar. Bəzisi bəzisiylə boğuşar, üstün gələn basılanı yeyər. Böyüyü kiçiyinə zülm edər. **Dünya əhli ayaqları bağlı heyvanlardır. Bir qismi də başlı-başına buraxılmış heyvandılar: ağıllarını itirmiş, məchul bir yola düşmüşlər. Ayaqları quma batır. O yolda nə ot var, nə su var, nə də onları sürüb aparan bir çoban var. Dünya onları korluq yoluna salmışdır, gözlərini hidayət əlamətlərindən yummuşdur.**

**Dünyaya qapılmışlar, nemətlərinə qərq olmuşlar, onu ilahiləşdirmişlər. Dünya onlarla oynar, onlar dünya ilə başlarını qatarlar. Qarşılarında nə olduğunu unutmuşlar. Hələ bir az dayan, qaranlıq açılar. Görürəm, köçlər bağlanmış, yüklər yüklənmişdir. Qaçan tez gedənə çatar yəqin ki.**

Oğlum, bil ki, **miniyi gecəylə gündüz olan bir adam dayansa belə, gedər. Oturub dincəlsə belə, irəliləyər. Yaxşıca bil ki, istəyinə çata bilməzsən, əcəlindən qaça bilməzsən. Sən, səndən əvvəl gedənin yolundasan. Bəs beləysə, istəyi azalt. Qazancı gözəlləşdir, çoxalt, çünki çox istək vardır ki, insanı əlində olan şeydən də məhrum edər. Hər istəyən ruzi qazanmaz, hər az istəyən də məhrum qalmaz.**

Nəfsini bütün alçaqlıqlardan üstün tut – səni istəklərə çəksə də, çünki nəfsini alçaltmağın əvəzində üstün və uca bir şey tapa bilməzsən, ancaq özünü zəlil edərsən. O zillətə isə heç bir izzət dəyməz. Özünü başqasına qul etmə. Allah səni azad yaratmışdır. Şərlə əldə edilən xeyirə xeyir deyilməz.

Zorla yetişilən sərbəstliyə sərbəstlik adı verilməz. Tamah miniyindən çəkin, o səni həlak suyunun başına aparar. Bacardıqca, Allahla öz arana başqa bir nemət sahibinin girməsinə yol vermə, çünki sən ancaq öz payını alacaqsan, öz qismətinə çatacaqsan. Baxmayaraq ki, hər şey Allahdandır, ondan gələn az, xalqdan gələn çoxdan daha üstündür. Əlindən çıxan şeyi sakitliklə geri qaytarmaq, çığır-bağır salıb qaytarmaqdan daha asandır. Qapağını bərk bağlamaqla qabaqdakını qorumaq mümkündür. Əlində olanı qorumağın, başqasının əlində olanı istəməyindən daha yaxşıdır, xoşdur məncə. Ümidsizliyin acısı, insanlardan bir şey istəməkdən daha xeyirlidir. Üzünüzün suyunu tökmədən yoxsulluğa dözmək, pisliklərə bulaşıb varlanmaqdan daha xeyirlidir.

Hər kəs öz sirrini daha yaxşı və möhkəm saxlayar. Çox çalışanlar var ki, çalışmaqları onlara zərər verər. Kim çox söz söyləsə, hədyan edər. Kim düşünsə, bəsirətə çatar. Xeyirli adamlarla dost-yoldaş ol, onların biri olmağa çalış. Şər adamlardan çəkin, onlardan uzaq ol. Haram yemək necə də pis bir şeydir. Zülmün ən pisi isə zəifə zülm etməkdir. Yumşaqlığın sərtlik sayıldığı yerdə sərtlik yumşaqlıq

**hesab edilər. Çox zaman əlac dərd olar, dərd isə dərmana dönər, əlac edər. Elə olar ki, öyüd verən öyüd verməz, öyüd alanı aldadar. Diləklərə qapılıb qalmaqdan çəkin, onlara qapılıb qalmaq – axmaqların sərmayəsidir. Ağıl isə, təcrübələri nəzərə almaq, onları unutmamaqdır. Ən xeyirli təcrübə, sənə öyüd verən təcrübədir.**

**Hər istəyən istədiyini əldə etməz. Hər qürbətə gedən geri qayıtmaz.** Azuqəni itirmək – iflasa uğramaqdır, axirəti bərbad etməkdir. Hər işin bir sonu vardı; necə təqdir edilmişsə, o cür gəlib sənə çatar. Ticarətə girişən təhlükəyə atılmışdır. **O qədər az var ki, çoxdan daha bərəkətlidir, daha verimlidir. Alçaq köməkçidən, ürəyində kin olan dostdan xeyir yoxdur. Miniyi sənə ram olsa da, zamana bel bağlama, arxa söykəmə. Öz payını al ondan. İnada düşməkdən, düşmənliyə girişməkdən çəkin. Qardaşın səninlə görüşməməyə başlasa, yaxınlığı kəssə, lütfdə, dostluqda yaramaz davransa, səndən uzaqlaşsa, sənə qarşı yumşaq ikən sərtləşsə... sənə vəlinemətlik iddiası etsə, qardaşından çəkin.** Bu dediklərimə, yerinə düşmədiyi halda əməl etməkdən, yaxud iş bilməyənlərlə alış-veriş etməkdən də çəkin. **Dostuna düşmən olanı dost sayma,** düşmən bil. Qardaşına öyüd ver – istər ona yaxşı və gözəl görünsün, istər çirkin gəlsin, xoşlanmasın. Qəzəbini boğ – nəticə baxımından bundan daha şirin, daha dadlı bir içki görmədim mən. **Səninlə sərt davranana qarşı yumşaq ol, olsun ki, o da yumşala. Düşməninlə alicənab davran, bağışla onu.** Bununla sən iki şirin qələbə qazanar-

san ki, biri ona xoş münasibətin, o biri də bağışlamağındır. **Səndən ayrılan qardaşını sən yolux; gün olar, zaman gələr, bəlkə qayıdıb yanına gələr. Sənin haqqında xoş fikirdə olanın zənnini doğrult**. Aranızdakı dostluğa güvənərək qardaşının haqqını itirmə. **Haqqını itirdiyin adam sənin qardaşın deyildir. Ailənə qarşı pis adam olma, sənə rəğbət etməyənə rəğbət etmə. Nə qədər qardaşına yaxşılıq edirsən, o səndən ayrılmaz. Nə qədər ki, ona hüsnrəğbət göstərirsən, o sənə pislik edə bilməz. Sənə zülm edənin zülmü gözündə böyüməsin. O, öz zərərinə, sənin xeyrinə çalışır. Səni sevindirənə pislik etməyin – yerinə düşməyən bir işdir.**

Bil ki, oğlum, **ruzi iki qisimdir**. Bir ruzini sən axtarırsan, bir ruzi də var, səni axtarar, sən ona tərəf getməmişdən o sənə tərəf gələr. **Ehtyac zamanında alçalmaq, varlı ikən zülm etmək nə qədər çirkin xasiyyətdir!** Axirətini necə düzüb-qoşmusansa, dünyadan nəsibin o qədərdir. Əlindən çıxana heyfsilənəcəksən, sənə çatmayan hər şey üçün heyfsilənib dur. Hələ olmayan, gəlib çatmayan şeyi olub-keçəndən anla, çünki işlər bir-birinə çox bənzəyər. Müsibətə düşməyincə **nəsihətdən faydalanmayanlardan olma, çünki ağıllı adam ədəblə öyüdlənər, heyvansa kötəklə.**

**Səbrə söykənərək, Allaha güvənərək dərdləri özündən uzaqlaşdır.** Orta və doğru yoldan çıxan azmışdır. Dost-yoldaş da qohum-qardaşdır. Dost odur ki, sən yox ikən sənə dostluq etsin. Neçə uzaq vardır ki, yaxından yaxındır. Neçə yaxın vardır ki,

uzaqdan da uzaqdır. Qərib o adamdır ki, dostu yoxdur. Haqqa qarşı çıxanın yolu daralar. Qədrini, həddini bilənin qədri həmişə bilinər. Tutmalı olduğu səbəblərin ən möhkəmi səninlə Allah arasındakı səbəbdir. Səni düşünməyən düşmənindir. **Tamah insanı həlak etdikdə, bir şey əldə etmək də ümidsizlik gətirər. Hər eyib açılmaz, hər fürsət xeyir verməz.** Çox olur ki, **görən adam yoldan azır, kor isə doğru yolu tapır**. Həmin anda **etmək istədiyin pisliyi gecikdir.**

Cahilin səndən ayrılması, səni axtarmaması – ağıllının səni itirib axtarmasına, gəlib görüşməsinə bərabərdir. **Kim zamandan əmin olarsa, zaman ona xəyanət edər. Kim onu böyük tutar, ondan çəkinərsə, ona xainlik göstərər. Hər ox atanın oxu hədəfə çatmaz, hər ox nişana dəyməz. Buyruq sahibi xasiyyətini dəyişdirəndə zaman da dəyişər. Yola düşmədən dostu soruş, evə girmədən qonşunu tap. Başqasına istinadən danışsan belə, gülünc söz söyləmə.**

Qadınlarla danışmaqdan çəkin; onların rəyləri zəif, iradələri boşdur. Görəcəkləri işdən başqa işə qoşma onları, çünki **qadın çiçəkdir – qoxlanar: qəhrəman deyildir – qolu bükülər. Qadını öz ucalığından başqa bir ucalığa yüksəltmə, özündən başqasına şəfaətçi etmə.** Qısqanılacaq yerdən başqa yerdə qısqanclıq etmə, çünki bu, doğrunu əyrildə, yaxşını şübhəli göstərə bilər.

Hər kəsi görə biləcəyi işə göndər. Belə etsən, işi bir-birlərinin boynuna ata bilməzlər, xidmətdən boyun qaçıra bilməzlər. **Qohum-qardaşına yaxşılıq**

**et, çünki onlar qol-qanadındır. Onlarla uçarsan. Onlar əsil-kökündür, onlara çatarsan. Onlar əlindir, onlarla hücum edərsən»** (2, s.325-335). ...Səni dininlə, dünyada Allaha tapşırıram. Bu tez keçən dünyada da, bir az sonra gələcək axirətdə də sənə xeyirlər diləyirəm, vəssəlam» (2, s.337).

# NƏTİCƏ

Həzrəti Əli (ə.) İslam mədəniyyəti tarixində qabaqcıl bir maarifçi, elm, mədəniyyət carçısı və mütərəqqi fikirli ictimai xadim kimi tanınmış görkəmli simalardan olmuşdur. Həzrəti Əli (ə.) təlim-tərbiyə məsələlərində qabaqcıl nəzəriyyə və təcrübəyə əsaslanmaqla, başqalarının mədəniyyətini kor-koranə təqlid etməyin heç vaxt tərəfdarı olmamışdır. Həzrəti Əli (ə.) bütün fəaliyyəti boyu İslam mədəniyyəti tarixini öyrənmiş, Məhəmməd Peyğəmbərin irsinə ehtiramla yanaşıb ondan öyrənmiş, sevimli Peyğəmbərimiz kimi nəhəng simanın ideyalarından qidalanmışdır.

Həzrəti Əli (ə.) ictimai həyatdakı sinifləri və bunlar arasındakı ziddiyyətləri, nadanlığı, geriliyi aydın hiss etmiş, onun əsas köklərini maarifsizlikdə, elmsizlikdə gördüyündən maarifçilik ideyasını geniş təbliğ etmişdir. Həzrəti Əli (ə.) insanları maddiyyata üstünlük verməməyə, həmçinin müsəlman aləmini tamahkarlığın caynağından xilas etmək üçün xalqı elmə, maarifə çağırmış və bunun üçün daim yollar axtarmışdır ki, bu da onun maarifçi-demokrat dünyagörüşünə malik olduğundan irəli gəlirdi.

Həzrəti Əli (ə.) nakam ömrünün sonuna kimi nikbin baxışlı bir imam, öndər olmuş, böyük arzularla yaşamış, gələcəyin səsini eşitmişdir.

Həzrəti Əli (ə.) xalq kütlələri içərisində maarif və mədəniyyətin yayılması üçün geniş təbliğat

işi aparmış, elmin, təhsilin böyük əhəmiyyətindən danışmış, bununla əlaqədar minbərdə və ya məsciddə oxuduğu hər bir xütbəsində bu fikirlə bağlı çıxış etmiş, elm və mədəniyyət naminə görülən bütün tədbirlərin həyata keçirilməsində fəal çalışmışdır.

Həzrəti Əli (ə.) şəxsiyyətin təşəkkülündə tərbiyənin gücünə böyük əhəmiyyət vermiş və onu geniş mənada başa düşmüşdür. Lakin tərbiyənin rolunu həddən artıq şişirtməmiş, irsiyyəti, xüsusən mühiti də şəxsiyyətin formalaşmasına təsir edən mühüm amil kimi qəbul etmişdir. Həzrəti Əliyə (ə.) görə tərbiyənin məqsədi Vətənini, xalqını qəlbən sevən, elmli, təhsilli, saf mənəviyyatlı, sağlam əqidəli, geniş dünyagörüşlü, əməksevər, mərd, mübariz vətənpərvər şəxslər yetişdirməkdən ibarətdir. O, tərbiyənin sinfi xarakterdə olduğunu göstərmiş və sübut etmişdir ki, nəcib əxlaq, saf mənəviyyat məhkum sinifdə, əməkçi xalqda daha parlaq təzahür edir. Əxlaq tərbiyəsindən bəhs edərkən Həzrəti Əli (ə.) haqlı olaraq antaqonist siniflərin olduğu cəmiyyətin mahiyyətindən irəli gələn, adamlarda daha çox özünü göstərən acgözlük, mənsəbpərəstlik, fərdiyyətçilik, xəsislik, tamahkarlıq, lovğalıq, paxıllıq, yaltaqlıq, kobudluq və s. kimi sifətləri kəskin tənqid etmişdir.

Həzrəti Əli (ə.) oğlu İmam Həsənə vəsiyyətində əxlaqı pis sifətləri tənqid etməklə kifayətlənməmiş, onlara vətənpərvərlik, humanizm, dostluq, yoldaşlıq, təvazökarlıq, işgüzarlıq, mərdlik, mübarizlik kimi ən ali hisslər aşılamağı lazım bilmiş, bu

işdə ailənin, ictimai mühitin roluna böyük əhəmiyyət vermişdir.

Həzrəti Əli (ə.) əmək tərbiyəsini əxlaq tərbiyəsi ilə əlaqədə götürmüşdür. O, əməyin tərbiyəedici xüsusiyyətini göstərərək, gənc nəsildə əməyə və əməkçi insanlara məhəbbət tərbiyə etməyi, vətən, xalq naminə vicdanla, namusla işləməyi, sənət öyrənməyi vacib bilmişdir.

Həzrəti Əliyə (ə.) görə hər bir valideyn övladını sevməli, şəxsiyyətinə hörmət etməlidir. Bu sevgi və hörmət uşağın gələcəyini düşünərək, onun davranış və hərəkətinə müntəzəm nəzarətdə, yüksək tələbkarlıqda, elmə, təhsilə və bütün insanlığa hörmət və məhəbbət tərbiyə etməkdə özünü göstərməlidir.

Həzrəti Əlinin (ə.) təlim-tərbiyə ilə bağlı pedaqoji fikirlərinə yekun vurarkən aşağıdakı ümumiləşdirmələrə gəlirik:

1. Böyük İslam dünyasında möhtəşəm yer tutan Həzrəti Əli (ə.) həm də yüksək pedaqoji məharətə malik bir İmam, mədəniyyət tariximizdə qabaqcıl bir maarifçi, elm, mədəniyyət carçısı və mütərəqqi fikirli ictimai xadim kimi tanınmış, görkəmli simalardan biri olmuşdur.

2. Onun dünyagörüşünün formalaşmasına həm Məhəmməd Peyğəmbər (s.ə.s.), həm də ictimai-siyasi fikir güclü təsir etmişdir. Əvəzsiz Övliyalar Sultanı sayılan Həzrəti Əlinin (ə.) dünya-görüşündə inkişaf və tərəqqi ideyası mühüm yer tutmuşdur. Sevimli Peyğəmbərimizin çağırışı ilə desək

«Əbu-Turab»ın (Torpağın atası) xalqı elmə, maarifə çağırışı onun demokratik maarifçi dünyagörüşünə malik olmasından irəli gəlirdi.

3. Həzrəti Əlinin (ə.) pedaqoji irsində təlim məsələləri – (müasir tələblər baxımından desək) təlimin funksiyaları, prinsipləri, metodları mühüm yer tutur. O, təlimi vahid bir proses kimi götürürdü.

4. Həzrəti Əlinin (ə.) pedaqoji fikir irsində ailə tərbiyəsi məsələləri mühüm yer tutur. İslam dünyasının bayraqdarı ailədə vahid tələblərin gözlənilməsini, valideynin nümunəsini uşağın tərbiyəsində mühüm şərt sayırdı.

5. Həzrəti Əli (ə.) böyüyən nəslin tərbiyəsinin məzmunu, məqsədi, həyata keçirilmə imkanları ilə bağlı dəyərli fikirlərə malikdir.

6. Həzrəti Əli (ə.) əmək tərbiyəsini əxlaq tərbiyəsi ilə əlaqədə götürmüş, əməyin tərbiyəedici xüsusiyyətini önə çəkmiş, böyüyən nəsildə əməyə və əməkçi insanlara məhəbbət tərbiyə etməyi, sənət öyrətməyi vacib bilmişdir.

7. Həzrəti Əlinin (ə) təlim-tərbiyə ilə bağlı fikirləri bütöv bir sistemdir. Həzrəti Əlinin (ə) oğluna nəsihəti də tərbiyəvi baxımdan böyük əhəmiyyət kəsb edir. O, buyururdu: «Əziz oğlum, məndən dörd şey öyrən, işlədiyin zaman sənə zərər verməyəcək dörd şeyi də ağlında tut: zənginliyin ən üstünü ağıldır; yoxsulluğun ən böyüyü axmaqlıqdır; qorxulu şeylərin ən qorxulusu özünü bəyənməkdir; nəslin-kökün ən ucası gözəl xasiyyətdir. Əziz

oğlum, axmaqla dost olmaqdan çəkin: o, sənə fayda vermək istərkən zərər yetirər. Xəsislə dost olmaqdan çəkin: ona ən çox möhtac olduğun zaman köməyə gəlməz. Pislik edənlə dost olmaqdan çəkin: o, səni çox ucuz bir şeyə satar. Yalançı ilə dost olmaqdan çəkin: çünki, o ilğıma bənzər: sənə uzağı yaxın göstərər, yaxını isə səndən uzaqlaşdırar».

Nəsihətamiz şəkildə deyilən bu kimi fikirlər, hər bir oxucuya təsəlli verir ki, haqq itmir, insanın özünə olmasa da, ruhuna xoşbəxtlik verir.

# HƏZRƏTİ ƏLİNİN (Ə.) ELM, TƏHSİL VƏ ƏXLAQ HAQQINDA HİKMƏTLİ SÖZLƏRİNDƏN

- Elmsiz ibadətdə, təfəkkürsüz Quran oxumaqda xeyir yoxdur.
- Elm tükənməyən bir xəzinədir, ağıl əksilməyən, köhnəlməyən bir libas.
- Elmli gənc, nadan ağsaqqaldan xeyirlidir.
- Elm insanı pislikdən qoruyar.
- Elm gizli olmayan gözəllikdir.
- Elmi xərcləməklə azalmaz, mal isə azalar.
- Elm peyğəmbərlərdən mirasdır, mal isə zalımlardan, hakimlərdən.
- Elm sahibini hifz edər, malı isə sahibi hifz edər.
- Elm insan öləndə də onunladır, mal isə bu dünyada qalandır.
- Elm insan üçün qiyamətin çətinliklərini və sirat körpüsünü keçməyi asan edər, mal isə ona mane olar.
- Elm hakimdir, mal isə hökm altında olandır, məğlubdur.
- Elm şərafətli və əziz mirasdır.
- Elm kimi üstünlük, danışmaq kimi arxa ola bilməz.
- Elm, dünyanın ən zəngin xəzinələrindən qiymətli olduğu halda, havayı satılır və havayı alınır.
- Elm və bilik bəhanə axtaranların yolunu kəsər.

- Elminizi nadanlığa sərf etməyin.
- Elm, ədəb üçün sərf etdiyin mal xərclənmə-yib.
- Bütün insanların elm sahibinə ehtiyacı var, amma mal sahibinə yox.
- Hər bir qabı doldurmaq olar, elm qabından başqa.
- Hər bir qab dolar, elmin qabı isə əksinə, dolduqca genişlənər.
- Az elmi olub bildiyinə əməl edən, çox elmi olub əməl etməyəndən xeyirlidir.
- Gözəllik insanın geyimində deyil, elm və ədəbindədir.
- Alimin xətası dəryada sınıq gəmiyə bənzər, həm özü qərq olar, həm də gəmidəkilər.
- Qiymətsiz elm dillərdə yer tutar, qiymətli elm bədəndə.
- Allah alçaltdığı bəndədən elm və biliyi əsirgəyər.
- Hər təcrübə yeni bir elmin mənbəyidir.
- Alimlərin düz sözü dərmandır, səhv sözü isə dərd.
- Alim cahili tanıyar, ona görə ki, özü əvvəl cahil olub.
- Alim məclisləri cənnət bağçalarıdır.
- Çox alimlər var ki, nadanlığı onu öldürür, elmi ona mənfəət vermir.
- Hər kəs alimlərlə oturub dursa ehtiram ta-par.

- Əsl alim anlamalıdır ki, bilmədiyi bildiyindən çoxdur.
- Mənə bir hərf öyrədənin köləsiyəm.
- Uşaqlarınıza elmləri öyrədin, düşmənin hiyləsinə aldanmasınlar.
- Ataların övladları üçün qoyduqları mirasın ən şərəflisi elm və ədəbdir.
- Övladın ata boynunda, atanın da övladın boynunda bir neçə haqqı var. Övladın borcu odur ki, ataya hər şeydə itaət edə (Allahın əmrindən başqa). Atanın övlad boynunda haqqı odur ki, ona yaxşı ad verə, ona gözəl əxlaq, «Quran» və elm öyrədə.
- Xoşbəxt insan, başqasından ibrət ala bilən-dir.
- Bilməməklə bərabər, bilmədiyini də bilməyib özünü alim sayanlardan həzər.
- Ən gözəl ədəb - əxlaq, ən şiddətli yoxsulluq – axmaqlıq, ən vəhşi vəhşət - özünü bəyənmək, ən zəngin dövlət isə – elm və ağıldır.
- Tərbiyə ağacı yumşaq olanın övlad və təbbəələri tərbiyəsiz olar.
- İnsanlar öz ata-analarından çox, zəmanələri-nə oxşayırlar.
- Şəxsiyyətin ən yaxşı cəhəti əxlaqdır.
- Əxlaqsız adamın şərəfi olmaz.
- Əsil-nəcabətin ölçüsü ədəbdir.
- Ədəb insanın şəklidir.
- Əqli çox olanın sözü az olar.

- Əqli az olanın oyunu və zarafatı çox olar.
- Əql kamilləşsə, söhbət azalar.
- Zənginliyin ən üstünü ağıldır.
- Ağıllı adam uzaqgörən olar.
- Ağıllı adamın zənni də gerçək olar.
- Ağıllının dili könlünün altında, axmağın könlü isə dilinin altındadır.
- Ağıl kimi dövlət, gözəl xasiyyət kimi dost, ədəb kimi miras, əxlaq kimi rəhbər, elm kimi şərəf yoxdur.
- Ən böyük dövlət – ağıl, ən böyük yoxsulluq – nadanlıq, ən böyük irs – tərbiyə, ən böyük köməkçi vaxtında verilən məsləhətdir.
- Danışanın özünə yox, sözünə daha çox diqqət et.
- Adam yanında birinə nəsihət etmək – onu danlamaqdır.
- Qeybətə qulaq asan qeybət edənlərdən biridir.
- Yaxşılıq ilə azad adamı qul eləmək olar.
- Nəfsindən qaç, bu aslan hücumundan qaçmağından daha faydalıdır.
- Mal sərxoşluğu, içki sərxoşluğundan daha şiddətlidir.
- Simic dövlətli, səxavətli dilənçidən də yoxsuldur.
- Nəfsinə düşman ol, rahat olarsan.
- Yəqinliyi şəkk ilə sındırmayın, bilib və yəqin eşidib işə başlayın.

- Ürəyi açıqlıq və üzü gülər olmaq məhəbbətin torudur ki, insanları onunla ovlamaq olar.
- Hər bir insanın qiyməti onun etdiyi yaxşı-lıqlarla ölçülür.
- Hər bir adam öz dilinin arxasında gizlənmiş-dir.
- Təkəbbürlü adamı heç kəs tərif etməz.
- Yoxsulluğun ən böyüyü axmaqlıqdır.
- Qorxulu şeylərin ən qorxulusu özünü bəyənməkdir.
- Nəslin-kökün ən ucası gözəl xasiyyətdir.
- Əziz oğlum, axmaqla dost olmaqdan çəkin: o, sənə fayda verməк istərkən zərər yetirər. Xəsislə dost olmaqdan çəkin: ona ən çox möhtac olduğun zaman köməyə gəlməz. Pislik edənlə dost olmaqdan çəkin: o, səni çox ucuz bir şeyə satar.
- Ölç, biç sonra kəs, düşün, daşın, sonra danış; anla, bil, sonra et.
- Bilmədiyin şey haqqında söz söyləmə, lazım olmadığı zaman söhbətə girişmə.
- Fayda verməyən bilikdə xeyir yoxdur.
- Cavan adamın könlü heç nə əkilməmiş sahəyə bənzər – nə əksən, bitər, boy atar.
- Nəfsini özünlə başqaları arasında bir tərəziyə döndər.
- Sənə edilməsini, başına gəlməsini sevdiyin, istədiyin şeyi başqaları üçün də sev, istə. Sənə edilməsini, başına gəlməsini istəmədiyin şeyləri onlar üçün də istəmə. Necə ki, özün zülmə düçar olmağı istəməzsən, eləcə sən də başqalarına zülm

etmə. Necə ki, sənə yaxşılıq edilməsini istəyirsən, sən də eləcə başqalarına yaxşılıq et.

- Başqasında görüb, eşidib çirkin saydığın şeyi özün üçün də çirkin bil.
- Sənə edilməsinə razı olacağın şeyi insanlara da et.
- Bildiyin az da olsa, zərəri yoxdur, ancaq bilmədiyini söyləmə.
- Sənə deyilməsini istəmədiyin şeyi sən də başqalarına demə.
- Özünü bəyənmək doğru yoldan azdırar, ağla ziyan gətirər.
- Qazanc etməyə çalış, qulluq elə, başqaları üçün xəzinə yığmaqla məşğul olma.
- Apara bilməyəcəyin yükü götürmə. Yüklən-sən sənə ağırlıq edər.
- Nəfsini bütün alçaqlıqlardan üstün tut – səni istəklərə çəksə də, çünki nəfsini alçaltmağın əvəzində üstün və uca bir şey tapa bilməzsən, ancaq özünü zəlil edərsən. O zillətə isə heç bir izzət dəyməz. Özünü başqasına qul etmə. Allah səni azad yaratmışdır. Şərlə əldə edilən xeyirə xeyir deyilməz.
- Zorla yetişilən sərbəstliyə sərbəstlik adı verilməz. Tamah miniyindən çəkin, o səni həlak suyunun başına aparar.
- Əlində olanı qorumağın, başqasının əlində olanı istəməyindən daha yaxşıdır, xoşdur məncə.

- Ümidsizliyin acısı, insanlardan bir şey istəməkdən daha xeyirlidir.
- Üzünüzün suyunu tökmədən yoxsulluğa dözmək, pisliklərə bulaşıb varlanmaqdan daha xeyirlidir.
- Hər kəs öz sirrini daha yaxşı və möhkəm saxlayar.
- Çox çalışanlar var ki, çalışmaqları onlara zərər verər. Kim çox söz söyləsə, hədyan edər. Kim düşünsə, bəsirətə çatar.
- Xeyirli adamlarla dost-yoldaş ol, onların biri olmağa çalış. Şər adamlardan çəkin, onlardan uzaq ol.
- Zülmün ən pisi zəifə zülm etməkdir.
- Yumşaqlığın sərtlik sayıldığı yerdə sərtlik yumşaqlıq hesab edilər.
- Çox zaman əlac dərd olar, dərd isə dərmana dönər, əlac edər. Elə olar ki, öyüd verən öyüd verməz, öyüd alanı aldadar.
- Diləklərə qapılıb qalmaqdan çəkin, onlara qapılıb qalmaq – axmaqların sərmayəsidir. Ağıl isə, təcrübələri nəzərə almaq, onları unutmamaqdır.
- Ən xeyirli təcrübə, sənə öyüd verən təcrübədir.
- O qədər az var ki, çoxdan daha bərəkətlidir, daha verimlidir.
- Alçaq köməkçidən, ürəyində kin olan dostdan xeyir yoxdur.

• Miniyi sənə ram olsa da, zamana bel bağla-ma, arxa söykəmə. Öz payını al ondan.

• İnada düşməkdən, düşmənliyə girişməkdən çəkin.

• Düşməninlə alicənab davran, bağışla onu.

• Səninlə sərt davranana qarşı yumşaq ol, olsun ki, o da yumşala.

• Səndən ayrılan qardaşını sən yolux; gün olar, zaman gələr, bəlkə qayıdıb yanına gələr.

• Sənin haqqında xoş fikirdə olanın zənnini doğrult.

• Qardaşın səninlə görüşməməyə başlasa, yaxınlığı kəssə, lütfdə, dostluqda yaramaz davran-sa, səndən uzaqlaşsa, sənə qarşı yumşaq ikən sərtləşsə... sənə vəlinemətlik iddiası etsə, qardaşından çəkin.

• Aranızdakı dostluğa güvənərək qardaşının haqqını itirmə.

• Nə qədər qardaşına yaxşılıq edirsən, o səndən ayrılmaz. Nə qədər ki, ona hüsnrəğbət göstərirsən, o sənə pislik edə bilməz.

• Haqqını itirdiyin adam sənin qardaşın deyildir.

• Ailənə qarşı pis adam olma, sənə rəğbət etməyənə rəğbət etmə.

• Sənə zülm edənin zülmü gözündə böyüməsin. O, öz zərərinə, sənin xeyrinə çalışır.

• Səni sevindirənə pislik etməyin – yerinə düşməyən bir işdir.

- Ehtiyac zamanında alçalmaq, varlı ikən zülm etmək nə qədər çirkin xasiyyətdir!
- Müsibətə düşməyincə nəsihətdən faydalanmayanlardan olma, çünki ağıllı adam ədəblə öyüdlənər, heyvansa kötəklə.
- Səbrə söykənərək, Allaha güvənərək dərdləri özündən uzaqlaşdır.
- Yalançı ilə dost olmaqdan çəkin: çünki, o ilğıma bənzər: sənə uzağı yaxın göstərər, yaxını isə səndən uzaqlaşdırar.
- Dost odur ki, sən yox ikən sənə dostluq etsin.
- Dostluqda sadiq olmayan həmişə xəcalətli-dir.
- Dostuna düşmən olanı dost sayma, düşmən bil.
- Aciz adam odur ki, dost qazana bilməyə, ən böyük acizlik isə dostu itirməkdir.
- Qərib o adamdır ki, dostu yoxdur.
- Söz gəzdirənə qulaq asan dostu itirər.
- Neçə uzaq vardır ki, yaxından yaxındır. Neçə yaxın vardır ki, uzaqdan da uzaqdır.
- Qədrini, həddini bilənin qədri həmişə bilinər.
- Səni düşünməyən düşmənindir.
- Tamah insanı həlak etdikdə, bir şey əldə etmək də ümidsizlik gətirər.
- Hər eyib açılmaz, hər fürsət xeyir verməz.
- Çox olur ki, görən adam yoldan azır, kor isə doğru yolu tapır. Həmin anda etmək istədiyin pisliyi gecikdir.

- Cahilin səndən ayrılması, səni axtarmaması – ağıllının səni itirib axtarmasına, gəlib görüşməsinə bərabərdir.
- Kim zamandan əmin olarsa, zaman ona xəyanət edər. Kim onu böyük tutar, ondan çəki-nərsə, ona xainlik göstərər.
- Hər ox atanın oxu hədəfə çatmaz, hər ox nişana dəyməz.
- Buyruq sahibi xasiyyətini dəyişdirəndə zaman da dəyişər.
- Yola düşmədən dostu soruş, evə girmədən qonşunu tap.
- Başqasına istinadən danışsan belə, gülünc söz söyləmə.
- Qadınlarla danışmaqdan çəkin; onların rəy-ləri zəif, iradələri boşdur. Görəcəkləri işdən başqa işə qoşma onları, çünki qadın çiçəkdir – qoxlanar: qəhrəman deyildir – qolu bükülər.
- Qadını öz ucalığından başqa bir ucalığa yüksəltmə, özündən başqasına şəfaətçi etmə.
- Qısqanılacaq yerdən başqa yerdə qısqanclıq etmə, çünki bu, doğrunu əyrildə, yaxşını şübhəli göstərə bilər.
- Hər kəsi görə biləcəyi işə göndər. Belə etsən, işi bir-birlərinin boynuna ata bilməzlər, xidmətdən boyun qaçıra bilməzlər.
- Qohum-qardaşına yaxşılıq et, çünki onlar qol-qanadındır. Onlarla uçarsan. Onlar əsil-kökündür,

onlara çatarsan. Onlar əlindir, onlarla hücum edərsən.

- Günah ilə qabağa gedən zəfər çalmaz.
- Pislik ilə qalib gələn şəxs, məğlubdur.
- İbrət və nəsihətlər çoxdur, qəbul edənlər az.
- Başqalarının övladlarına yaxşılıq və mehribanlıq et ki, övladlarının gələcəyi hifz olunsun.
- Həsəd aparmamaq bədənin sağlamlığıdır.
- Hər kəs həya libası geysə, xalq onun eybini görməz.
- Kişilərin qiyməti çətin məqamda bilinər.
- Dil vəhşi heyvana bənzər, əgər azad burax-san ilan kimi çalar.
- Bəxşiş et, israfçılıq etmə.
- Hər kəsin yeməyi az olsa, xəstəliyi də az olar.
- Az danışanın xətası da az olar.
- Hər bildiyin şeyi demə, bu sənin nadanlığın üçün kifayətdir.
- İnsan üçün böyük eybəcərlik odur ki, zahiri-ni bəzəyər, daxili çirkin olar.
- Hər kim şərəfsizlərlə oturub dursa qədri-qiymətini itirər.
- Hər kəs öz şərəfini əldən versə, atasının şərəfi ona kömək eləməz.
- Pis işi təxirə sal, çünki istədiyin vaxt edə bilərsən.
- Hər kəsin tərbiyə üsulu yumşaq olsa, onun övlad və törəmələri tərbiyəsiz olar.

## ƏDƏBİYYAT


1. Quran. Bakı, 1992.
2. Əli ibn Əbu Talib. Nəhcül-Bəlağə. Tehran, 1995.
3. Həzrəti Əli. Divan. Bakı, 2000.
4. İmam Əlinin qısa kəlamları. Bakı, 1991.
5. Salih Surac. Peyğəmbərimizin həyatı. II clddə, I cild, İstanbul, 1998.
6. Qurana dair 101 sual. Bakı, 1992.
7. Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Bakı, 1980.
8. Fəxrəddin Altan. Könlü oxşayan sözlər. Qum, 1994.
9. Əhmədağa Əhmədov. Dürəfşan kəlamlar. Bakı, 2000.
10. Əlisa Nicat. Dünya filosofları. Bakı, 1995.
11. Fazlullah Kumpani. Həzrəti Ali kimdir. 1998.
12. Fərrux Rüstəmov. Şərq pedaqogika tarixi. Bakı, Nurlan, 2002.
13. Kamal Camalov. Həzrəti Əli elm və elm öyrənməyin fəzlətləri haqqında. Pedaqoji Universitet Xəbərləri, Bakı, ADPU - 2003, №3, s.440-442.
14. O.Qüdrətov, N.Qüdrətov. Məhəmməd Peyğəmbər. Həyatı və kəlamları. Bakı, 1990.
15. Şemseddin Yeşil. Binbir hadis. İstanbul, 1996.
16. Q.Qrunebaum. Klassik İslam. Bakı, 1998.
17. Z.Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989.
18. S.Əlizadə. Oğuznamə. Bakı, 1987.

20. Ə.Səfərli., X.Yusifov. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı, 1998.
21. N.Vəlixanlı. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993.
22. N.Vəlixanlı. Xilafətin Azərbaycandakı inzibati siyasətinin ərəb mənbələrində əksi. Bakı, 1996.
23. İmam Hüseyn (qəhrəmanlığının təhlili). Üç cilddə, I cild, Bakı, Nurlan, 2006.
24. Rza Cahid. Mənəvi xəzinələr. İran, «Əndişeyi Hadi» nəşriyyatı, 2004.
25. Nakib El-Attas. İslami Egitim. İstanbul, 1991.
26. Ahmet Çelebi. İslamda eğitim-öğretim tarihi. İstanbul, 1983.
27. Bayraktar Faruk. İslam eğitiminde öğretmen-öğrenci münasibetleri. İstanbul, 1987.
28. İslam-Türk ansiklopedisi. c.I. İstanbul, 1991.
29. Mehmet S. Dini Bilgiler. İstanbul, 1991.

# MÜNDƏRİCAT

Ön söz........................................3
Giriş........................................8
1. Həzrəti Əli (ə) və onun həyatına müfəssəl baxış........................................12
2. Müsəlman mədəniyyətinin yaranmasında Həzrəti Əlinin (ə) rolu........................................15
3. Həzrəti Əlinin (ə) ideyalarında şəxsiyyət və əxlaqi dəyər........................................32
4. Həzrəti Əli (ə) elm və elm öyrənməyin fəzilətləri haqqında........................................38
5. Həzrəti Əlinin (ə) əqli tərbiyəvi fikirləri.........46
Nəticə........................................63
Həzrəti Əlinin elm, təhsil və əxlaq haqqında hikmətli sözlərindən........................................68
Ədəbiyyat........................................79

| | |
|---|---|
| **Nəşriyyatın direktoru:** | **H.Hacıyev** |
| **Texniki redaktor:** | **R.Əliyeva** |
| **Korrektorlar:** | **G.İsmayılova** |
| | **G.Məmmədova** |

Çapa imzalanmış 10.09.2009-cu il
Kağız formatı 60x84 1/16, çap vərəqi 14
Sifariş 223, sayı 500

ADPU-nun mətbəəsi
Bakı, Ü.Hacıbəyov küçəsi, 34
Tel: 493-74-10